Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 20 (8043) ŞƏNBƏ, 26 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Hindistan Respublikasının Prezidenti zati-aliləri cənab Ram Nat Kovində

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Hindistan əlaqələri tarixən təşəkkül tapmış xoş ənənələrə malikdir. İnanıram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bu ənənələri daha da zənginləşdirəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2019-cu il*

## Avstraliya İttifaqının General-Qubernatoru zati-aliləri cənab Piter Kosqrova

Hörmətli cənab General-Qubernator!

Avstraliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstraliya arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın dərinləşməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Avstraliya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2019-cu il*




# 58 beynəlxalq turnirə evsahibliyi, 236 yarışda iştirak, 263 qızıl medal

## Azərbaycan idmançıları ötən ili möhtəşəm nailiyyətlərlə başa vurdular

İdmançılarımız dünyanın ən mötəbər turnirlərində uğurla çıxış edərək ölkəmizin adını daim uca tuturlar. Atletlərimiz müxtəlif yarışlarda idmanın olimpiya və qeyri-olimpiya növləri üzrə ölkəmizi şərəflə təmsil edir və Azərbaycanın idman şöhrətini qaldırırlar.

2018-ci ildə idmançılarımız qatıldıqları beynəlxalq yarışlarda 753 medal qazanıblar. Medallardan 263-nün əyarı qızıl, 230-u gümüş, 260-ı bürüncdür. Ölkəmizdə 58 beynəlxalq idman tədbiri keçirilib. Milli komandalarımız isə 236 beynəlxalq turnirə qatılıb.

Azərbaycanın keçən il "Formula-1" Azərbaycan Qran-prisinə, velosiped idmanının BMX növü və cüdo üzrə dünya çempionatlarına, gimnastika üzrə dünya kuboklarına, Avropa çempionatına və digər mötəbər yarışlara uğurla evsahibliyi etməsi, atletlərimizin beynəlxalq turnirlərdə qazandıqları parlaq qələbələr ölkəmizin idman tarixinə qızıl hərflərlə yazıldı.

### Yeniyetmə olimpiyaçıların zəfəri

Yola saldığımız ildə ən yaddaqalan idman hadisələrindən biri atletlərimizin Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında qazandıqları uğurdur. Oktyabrın 6-18-də keçirilmiş Olimpiadada 17 idmançıdan ibarət Azərbaycan milli komandası 6 medal (2 qızıl, 1 gümüş, 3 bürünc) əldə edib.

Cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) oyunların çempionu olublar. Ağır atlet Tərmenxan Babayev (85 kq) ölkəmizin aktivinə Olimpiadanın gümüş medalını yazdırıb. Milli komandamızın bürünc medallarını isə taekvondoçu Cavad Ağayev (63 kq), güləşçi Şahanə Nəzərova (43 kq) və boksçu Nurlan Səfərov (60 kq) qazanıblar.

Bədii gimnast Yelizaveta Luzan Olimpiadada qarışıq komandanın tərkibində çıxış edib və çempion adına layiq görülüb. Lakin Beynəlxalq Olimpiya Komitəsinin qərarına uyğun olaraq, bu medal milli komandamızın hesabına yazılmayıb və qarışıq komandaların aktivinə əlavə edilib.

Olimpiadanın yarışlarında 241 dəst medal uğrunda 206 ölkədən təxminən 4 min idmançı mübarizə aparıb. Azərbaycan milli komandası Olimpiadanın medal sıralamasında Norveçlə 34-35-ci yeri bölüşüb.

### Sürət paytaxtı

Keçən il Azərbaycan bir sıra nüfuzlu turnirlərə evsahibliyi edib.



Sözsüz ki, bunların sırasında planetin bir nömrəli avtomobil yarışı - "Formula-1" Azərbaycan Qran-prisi xüsusi yer tutur. Aprelin 27-29-da üçüncü dəfə Bakıda keçirilən "Formula-1" dünya çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı. Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı auditoriyasına malik yarışı 68 ölkədən gəlmiş çoxsaylı azarkeşlər Bakıda tribunalardan izlədilər.

Pilotlar ümumu məsafəsi 306 kilometr və 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Trekin ən geniş yerinin eni 13 metr, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi. 30 mindən çox tamaşaçının yarışları yerində izləməsi üçün hər cür şərait yaradılmışdı.

Maraqlı və gərgin keçən yarışın yekununda "Mercedes" komandasının üzvü Luis Hamilton 1 saat 43 dəqiqə 44,291 saniyəlik nəticə ilə Azərbaycan Qran-prisinin qalibi oldu. İkinci yeri "Ferrari" komandasının sürücüsü Kimi Raikkonen, üçüncü yeri isə "Force India" komandasının pilotu Serxio Peres tutdular.

*Ardı 6-cı səh.*

# Birinci vitse-prezident Mehriban Əliyeva işdən ixtisar olunan əməkdaşların işlə təmin edilməsi ilə bağlı "Azərenerji" ASC-yə göstəriş verdi



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC-də çalışan və işdən ixtisar olunan əməkdaşların müvafiq işlə təmin edilməsi barədə "Azərenerji" ASC-yə göstəriş verib.

AZƏRTAC xəbər verir ki, 2018-ci il dekabrın 13-də bir qrup şəxs "Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC-də tutduğu vəzifəsindən azad olunması ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya məktubla müraciət edib. Müraciətin araşdırılması nəticəsində məlum olub ki, 2018-ci il iyulun 3-də Mingəçevir şəhərindəki Azərbaycan İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə əlaqədar enerji sisteminin dövlət əhəmiyyətli strateji obyektlərində təxribat və terror xarakterli əməllərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər kimi bu obyektlərin mühafizəsinin Daxili İşlər Nazirliyinin Mühafizə polisi tərəfindən aparılması barədə qərar qəbul edilib. "Azərenerji" ASC tərəfindən "Azərbaycan İES" MMC-nin mühafizəsinin zəruri hissəsi Daxili İşlər Nazirliyinə həvalə olunduğundan, Mingəçevir və Varvara Su Elektrik stansiyalarının mühafizəsinin böyük hissəsi Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirildiyindən, eləcə də "Azərbaycan İES" və bir sıra stansiyalarda ağıllı müşahidə kameraları quraşdırıldığından və hasarlama işləri aparıldığından bəzi işçilərin ixtisarı barədə qərar qəbul olunub.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva məsələnin işçilərin əmək hüquqlarının bərpa olunması şərti ilə operativ həllinə və onların müvafiq işlə təmin olunmasına dair göstəriş verib.

# Mükəmməl infrastruktur layihələri Azərbaycana iqtisadi və siyasi dividendlər qazandırır

**Prezident İlham ƏLİYEV:**

"Bizim planımız neft və qaz sektorundan başqa yeni imkanlar və gəlir mənbəyi yaratmaqdır"




Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumunda bir sıra işgüzar görüşlər keçirib. Bu görüşlərdə diqqəti çəkən məqam isə dövlət başçısının dünyanın nəhəng transmilli şirkət rəhbərləri ilə təmasda olmasıdır.

Təqdirəlayiq haldır ki, həmin görüşlərin təşəbbüsçüləri elə həmin şirkət rəhbərləridir. Bu fakt onu göstərir ki, aparılan uğurlu iqtisadi və struktur islahatlar sayəsində Azərbaycan dünyanın biznes elitası üçün cəlbedici ölkəyə çevrilib.

Həmin görüşlərin bir özəlliyi də sözügedən şirkətlərin Azərbaycan iqtisadiyyatının infrastruktur layihələrinə investisiya qoymaq marağının olmasıdır. Həmin maraqlar Bakının işıqlandırılmasından tutmuş dövlət strukturlarını son texnologiyalarla təchiz edərək elektron hökumətin yaradılması, eləcə dünyanın gələcək inkişafının təminatçısı olacaq süni intellektin ölkəmizə də tətbiqi sahələrini əhatə edir. Dövlət başçısı görüşlərində Azərbaycanda mükəmməl nəqliyyat və digər sahələr üzrə infrastrukturun yaradılması sayəsində ölkəmizin dünya üçün coğrafiyasından daha böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. Həqiqətən, nəqliyyat infrastrukturu layihələrinin uğurla icra edilməsi nəticəsində bu gün Azərbaycan-Avropa, eləcə də Avropa-Asiya arasında çatışmayan körpü yaranıb. Belə hal ölkəmizin dünyada həm də siyasi nüfuzunu artırıb.

*Ardı 3-cü səh.*

# İlham Əliyevin siyasi alternativsizliyi birmənalı rəydir

## YAP-ın Gənclər Birliyinin hər hansı rayon təşkilatı birləşmiş müxalifətin mitinqindən daha əzəmətli tədbir təşkil edə bilər

İllərdir antiazərbaycançı şəbəkənin verdiyi qəpik-quruş qarşılığında ara qarışdıran və hər cür naxələfliyə razılıq verən bir qrup "qrantyeyən"in son günlərdə "aktivlik" nümayiş etdirməsi heç də təəccüblü deyil.

Düzdür, adətən belə hallara Azərbaycanda mühüm ictimai-siyasi proseslər ərəfəsində rast gəlinirdi. Deyəsən, antiazərbaycançı şəbəkə ölkə daxilindəki buyruq qullarının iflic durumunda olduğunu görüb "kisəsinin ağzını açıb". Ancaq aqressiv müxalifətin yeni tapşırıqları hansı formada icra etməsi xaricdəki havadarlarını heç də razı salmayıb. Çünki ötən həftə keçirilən mitinq, dağıdıcıların zəifliyini, cəmiyyət tərəfindən dəstəklənmədiyini bir daha nümayiş etdirdi.

Görünən odur ki, dövlətimizin son illərdəki uğurlarını həzm edə bilməyən antiazərbaycançı şəbəkə müsəlman aləmində öz abadlığı və azadlığı, rahatlığı və sabitliyi, dincliyi və tolerantlığı, multikulturallığı ilə seçilən Azərbaycanda yenə aranı qarışdırmağa, məkrli niyyətini "işə salmağa" çalışır. Ancaq antimilli şəbəkənin və daxildəki "sapı özümüzdən olan baltalar"ın çirkin oyunları hər zamankı kimi iflasa məhkumdur.

Son günlərdə dağıdıcı müxalifət düşərgəsində qrant xatirinə vətənsatma "sevdası" yenə baş qaldırıb. Dağıdıcılar sosial şəbəkələrdə, internet resurslarında keçirdikləri mitinqi elə təqdim edirlər ki, guya "birləşmiş müxalifət"in "Məhsul" stadionunda keçirdiyi mitinqdə qələbəlik yaşanıb. Halbuki mitinq təşkilatçılığın zəifliyi, sistemsizliyi ilə diqqət çəkib.

25 ildən çoxdur ki, dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaq yorucu səs tembrləri yenidən təkrarlandı. Aksiyada heç bir ziyalı, cəmiyyətdə tanınan şəxsin iştirakı nəzərə çarpmadı.

*Ardı 4-cü səh.*

# Yeni təşəbbüs, real nəticə, uğurlu gələcək

## Kənd şagirdlərinin əzmkarlığı sübut edir ki, uzaq məsafələr, yaşanan çətinliklər təhsilin qarşısında sədd ola bilməz



**Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə dünya standartlarına uyğun müasir tipli məktəblərin sayı ildən-ilə artır. Respublikanın ayrı- ayrı bölgələrində, hətta ucqar dağ kəndlərində inşa edilən modul tipli məktəblər də təhsilin inkişafına dövlət səviyyəsində olan yüksək qayğının təzahürüdür.**

Elə Təhsil Nazirliyi tərəfindən İsmayıllı rayonu Lahıc qəsəbəsinə və Gəndov kəndinə təşkil edilən mediaturun da məqsədi, orada şagirdlər üçün yaradılmış təhsil imkanları ilə yaxından tanışlıq idi.

### 5 kəndin təhsil ocağı

Səfər çərçivəsində KİV nümayəndələri və təhsil ekspertləri ilk olaraq Gəndov kəndində yeni istifadəyə verilən modul tipli ümumi orta məktəblə tanış oldular. 2018-ci ildə Prezidentin sərəncamına əsasən quraşdırılan modul məktəbin direktoru Xuraman Qurbanova məlumat verdi ki, 1975-ci ildə tikilmiş əvvəlki məktəb çox köhnə idi: "Modul tipli indiki məktəbdə isə hazırda 44 şagird təhsil alır. Şagirdlərə 14 müəllim təhsil verir ki, onların da əksəriyyəti gənclərdən ibarətdir".

Direktor qeyd etdi ki, şagirdlər arasında məktəbə çox uzaq məsafədən gələnlər də var. Belə ki, uşaqların bəziləri Köhnədaxar, Dərəkənd, Müşkəmir, Kənə kəndindən gələrək bu məktəbdə təhsil alırlar.

### Birincilərin yeganə Mirzəsi

Direktorla söhbəti bitirib siniflərə daxil olduq. Ədəbiyyat müəllimi Ceyhun Əsgərovun və coğrafiya müəllimi Orxan Kamalın, eləcə də ibtidai sinif müəllimi Faiz Şərifovun dərs prosesini izlədik.

40 illik müəllim təcrübəsinə malik Faiz Şərifov fəaliyyətinin 30 ilini Gəndov məktəbinə həsr edib: "Əvvəl kənd uşaqlarına çox acınacaqlı şəraitdə dərs keçirdim. Geriyə baxıb o günləri xatırlayanda, şükür edirəm ki, indi bizim şagirdlərimizə bu cür gözəl şəraitdə təhsil almaq imkanı yaradılıb".

*Ardı 8-ci səh.*

# Psixoloji yardım haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını, psixoloji yardım alan şəxslərin və psixoloqların hüquqlarını və vəzifələrini müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

### 1-ci fəsil

### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. **psixoloji yardım** - psixoloji problemlərin həlli, stress vəziyyətlərin nəticələrinin aradan qaldırılması, şəxsiyyətlərarası münasibətlərin və psixi sağlamlığın yaxşılaşdırılması, şəxsiyyətin inkişafı, sosial adaptasiya məqsədi ilə psixoloji prinsiplər və metodlar əsasında həyata keçirilən tədbirlər;

1.0.2. **psixoloq** - bu qanunla müəyyən edilmiş tələblərə cavab verən, psixoloq ixtisası üzrə ali təhsil almış və ya "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlavə təhsilalma formasında psixoloq ixtisasını əldə etmiş və psixoloji yardım göstərmək hüququ olan şəxs;

1.0.3. **psixoloji yardım alan şəxs** - mürəkkəb psixoloji vəziyyətlə bağlı psixoloji yardım göstərən şəxsə müraciət edən şəxs (şəxslər);

1.0.4. **psixoloji yardım standartları** - psixoloji yardımın növünə, formasına, müddətinə və keyfiyyətinə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən minimum tələblərin məcmusu;

1.0.5. **ilkin psixoloji yardım** - fövqəladə hadisələr zamanı zərər çəkmiş şəxslərdə kəskin stress əlamətlərinin azaldılması və əsas insani tələbatların ödənilməsinə yönəlmiş qeyri-ixtisaslaşdırılmış tədbirlər;

1.0.6. **psixoanaliz** - psixi pozuntuların müalicəsinə dair psixoloji nəzəriyyə və psixoterapevtik müalicə üsulu;

1.0.7. **böhran vəziyyəti** - şəxsin müstəqil aradan qaldıra bilmədiyi və psixoloji problemlərin yaranmasına səbəb olan hallar;

1.0.8. **təcili psixoloji yardım** - böhran vəziyyətində olan şəxslərə göstərilən ixtisaslaşdırılmış psixoloji yardım;

1.0.9. **ailə terapiyası** - ailələrə psixoloji yardım göstərilməsinə yönəlmiş psixoterapiyanın müstəqil bölməsi;

1.0.10. **davranış psixologiyası** - davranış prinsiplərini öyrənən psixologiya sahəsi;

1.0.11. **neyropsixologiya** - psixoloji proseslərlə əlaqədar mərkəzi sinir sisteminin strukturu və funksiyalarını öyrənən psixologiya sahəsi;

1.0.12. **psixopatologiya** - psixi fəaliyyətin pozulmasını öyrənən psixologiya sahəsi;

1.0.13. **klinik (tibbi) psixologiya** - psixi halların xəstəliklərlə qarşılıqlı əlaqəsini öyrənən psixologiya sahəsi;

1.0.14. **klinik (tibbi) psixoloq** - bu qanunla müəyyən edilmiş tələblərə cavab verən, təhsili klinik (tibbi) psixologiya üzrə magistr dərəcəsindən aşağı olmayan və ixtisası üzrə ən azı 1 (bir) il iş təcrübəsi olan və səhiyyə müəssisələrində psixoloji yardım göstərmək hüququ olan şəxs;

1.0.15. **psixoloji problem** - şəxsin özü, peşə fəaliyyəti, şəxsiyyətlərarası münasibətlər, ailə vəziyyəti və (və ya) şəxsi həyatının digər problemləri ilə bağlı psixoloji narahatlığı;

1.0.16. **klinik psixoloji yardım** - klinik (tibbi) psixoloqlar tərəfindən psixoterapiya, psixoloji müayinə (diaqnostika), psixoloji reabilitasiya və psixoloji korreksiya, habelə psixoloji məsləhət formalarında göstərilən psixoloji yardım.

**Maddə 2. Psixoloji yardım haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Psixoloji yardım haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3. Qanunun tətbiq dairəsi**

3.1. Bu qanun Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən, təşkilati hüquqi formasından asılı olmayaraq, bütün hüquqi şəxslərə, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinə şamil edilir.

3.2. "Psixoloq", "psixoloji", "psixoanaliz", "psixodiaqnostika", "psixoterapiya" sözlərindən və bu sözləri özündə əks etdirən söz birləşmələrindən adında və digər rekvizitlərində yalnız bu qanuna uyğun olaraq psixoloji yardım göstərmək hüququ olan şəxslər tərəfindən istifadə edilməsinə yol verilir.

3.3. Bu qanunun müddəaları aşağıdakı hallara şamil edilmir:

3.3.1. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həkim tərəfindən həyata keçirilən psixiatriya yardımına;

3.3.2. Azərbaycan Respublikasının inzibati xətalar, cinayət və mülki prosessual qanunvericiliyinə uyğun olaraq təyin edilmiş psixoloji ekspertizaya;

3.3.3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş peşə fəaliyyəti yüksək təhlükə mənbəyi ilə bağlı olan iş yerlərində işə qəbul, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə hərbi xidmətə və xüsusi təyinatlı təhsil müəssisələrinə qəbulla əlaqədar psixoloji müayinəyə.

**Maddə 4. Psixoloji yardımın növləri və formaları**

4.1. Psixoloji yardımın növləri aşağıdakılardır:

4.1.1. **psixoloji profilaktika və maarifləndirmə** - psixoloji problemləri yaradan amillər və şəraitlər haqqında məlumatlanma;

4.1.2. **psixoloji konsultasiya** - şəxsin psixoloji problemlərini başa düşməsi və həll etməsi üçün göstərilən yardım prosesi;

4.1.3. **psixoloji dəstək** - şəxsin adaptasiya qabiliyyətinə təsir edə biləcək psixoloji problemlərin aşkar edilməsi və qarşısının alınması;

4.1.4. **psixoloji müayinə (diaqnostika)** - şəxsin normal həyat ahəngini pozan, onun davranış və münasibətlər sisteminə təsir edən psixoloji problemlərinin öyrənilməsi və göstəriləcək psixoloji yardımın növünü, formasını və həcmini düzgün müəyyən etmək məqsədi ilə psixoloji yardım alan şəxsin fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi;

4.1.5. **psixoterapiya** - psixoloji metodlardan istifadə edərək psixi pozuntuların müalicəsi;

4.1.6. **psixoloji reabilitasiya və psixoloji korreksiya** - psixi sağlamlıq problemləri olan şəxsin psixososial uyğunlaşması və səmərəli sosial davranışının bərpa olunması və ya inkişafı;

4.1.7. **psixoloji treninq (psixoloji təlim)** - psixologiya sahəsi ilə əlaqəli olan yeni biliklərin, vərdişlərin və münasibətlərin inkişafına yönəlmiş aktiv öyrənmə üsulu.

4.2. Psixoloji yardım aşağıdakı formalarda həyata keçirilir:

4.2.1. psixoloji yardım alan şəxslə mütəxəssis arasında qarşılıqlı əlaqənin formasından asılı olaraq - bilavasitə və vasitəli (telefon, internet və digər texniki vasitələrdən istifadə etməklə);

4.2.2. iştirakçıların sayından və tərkibindən asılı olaraq - fərdi, ailə, qrup;

4.2.3. davam etmə müddətindən asılı olaraq - təcili, birdəfəlik, qısamüddətli (12 məşğələyə qədər), uzunmüddətli (12 məşğələdən çox).

### 2-ci fəsil

### PSİXOLOJİ YARDIM SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

**Maddə 5. Psixoloji yardım sahəsində dövlətin vəzifələri**

5.1. Dövlət vətəndaşların vaxtında, keyfiyyətli psixoloji yardım almaq hüququna təminat verir.

5.2. Psixoloji yardım sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

5.2.1. psixoloji problemlərinin yaranması riski yüksək olan əhali qrupları arasında mürəkkəb psixoloji vəziyyətlərin və onların nəticələrinin profilaktikası və aradan qaldırılması;

5.2.2. psixoloji yardım sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, o cümlədən bu sahədə normativ hüquqi aktların, dövlət standartlarının və dövlət proqramlarının işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi;

5.2.3. Azərbaycan Respublikası əhalisinin psixoloji rifahını təmin edən və həyat keyfiyyətlərini yüksəldən şəraitin yaradılması;

5.2.4. psixi sağlamlığın profilaktikası, psixi inkişafın optimallaşdırılması, adaptasiya, şəxsin cəmiyyətə inteqrasiyası və reabilitasiyanın dəstəklənməsi;

5.2.5. psixoloji yardım göstərən mütəxəssislərin hazırlanması və ixtisas səviyyəsinin yüksəldilməsi;

5.2.6. psixoloji yardım sahəsində dövlət orqanlarının, bələdiyyələrin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi;

5.2.7. psixoloji konsultasiya və maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi, o cümlədən sosial reklam çarxlarının hazırlanması və yayımlanması, qaynar xəttin təşkili;

5.2.8. psixoloji yardım sahəsində nəzarətin həyata keçirilməsi;

5.2.9. psixoloji yardım sahəsində beynəlxalq əməkdaşlıq.

**Maddə 6. Psixoloji yardımın maliyyələşdirilməsi**

6.1. Psixoloji yardım ödənişsiz və ya ödənişli əsaslarla göstərilir.

6.2. Aşağıdakı şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququ vardır:

6.2.1. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təcili və təxirəsalınmaz hallarda Azərbaycan Respublikası vətəndaşlarının;

6.2.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil müəssisələrində təhsilalanların;

6.2.3. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tutulmuş və həbs edilmiş şəxslərin;

6.2.4. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə uyğun olaraq penitensiar müəssisələrdə cəza çəkən şəxslərin;

6.2.5. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq cəza çəkməkdən azad edilmiş şəxslərin;

6.2.6. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məişət zorakılığından zərər çəkmiş şəxslərin;

6.2.7. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət keçən hərbi qulluqçuların;

6.2.8. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial xidmətə götürülmüş şəxslərin (ailələrin);

6.2.9. fövqəladə hadisə zamanı zərər çəkmiş şəxslərin, onların ailə üzvlərinin, habelə fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında iştirak edən şəxslərin;

6.2.10. kollektiv əmək müqaviləsində nəzərdə tutulduğu hallarda Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş peşə fəaliyyəti yüksək təhlükə mənbəyi ilə bağlı olan şəxslərin;

6.2.11. "Əlilliyi olan şəxslərin hüquqları" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibbi-sosial reabilitasiyası zamanı əlilliyi olan şəxslərin;

6.2.12. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq insan alverinin qurbanı olmuş şəxslərin.

6.3. Qanunla ödənişsiz psixoloji yardımın göstərilməsinin digər halları da nəzərdə tutula bilər.

6.4. Bu qanunun 6.2.1-ci maddəsində nəzərdə tutulmuş halda, psixoloji yardım şəxsin yaşayış yeri və ya olduğu yer üzrə dövlət ambulator-poliklinika müəssisəsində və ya həmin müəssisənin göndərişi ilə ixtisaslaşdırılmış dövlət tibb müəssisəsində göstərilir.

6.5. Ödənişsiz psixoloji yardımın göstərilməsi qaydası və şərtləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

6.6. Bu qanunun 6.2-ci maddəsində göstərilən hallar istisna olmaqla, digər hallarda psixoloji yardım göstərən şəxs tərəfindən psixoloji yardım müqavilə əsasında ödənişli qaydada göstərilir.

6.7. Psixoloji yardım göstərən şəxslə psixoloji yardım alan şəxsin münasibətləri, eləcə də psixoloji yardım göstərən şəxsə ödəniləcək xidmət haqqının məbləği onlar arasında bağlanmış müqavilə ilə tənzimlənir.

**Maddə 7. Psixoloji problemlərinin yaranma riski yüksək olan əhali qrupları arasında profilaktik tədbirlərin həyata keçirilməsi**

7.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən fövqəladə hadisələr zamanı zərər çəkmiş şəxslərə psixoloji yardımın göstərilməsi və onların psixoloji fəsadlarının aradan qaldırılması məqsədilə zəruri tədbirlər həyata keçirilir.

7.2. İşəgötürənlər bu qanunun 6.2.10-cu maddəsində nəzərdə tutulmuş şəxslərin işəgötürənin vəsaiti hesabına vaxtaşırı psixoloji müayinədən keçməsi və onun nəticəsindən asılı olaraq psixoloji yardımla təmin edilməsi üçün tədbirlər görməlidirlər.

7.3. Əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası onlara psixoloji yardımın göstərilməsi ilə bağlı tədbirləri də nəzərdə tutmalıdır.

7.4. Fiziki və hüquqi şəxslər əməyin təşkili, stresin aradan qaldırılması, münaqişələrin həlli, işçilərin iş potensialının artırılması və digər məsələlər ilə bağlı psixoloji yardım göstərən şəxslə bağlanmış müqavilə əsasında məsləhətlər və ya psixoloji treninqlər keçirmək hüququna malikdirlər.

### 3-cü fəsil

### PSİXOLOJİ YARDIMIN PRİNSİPLƏRİ

**Maddə 8. Psixoloji yardım göstərilməsinin əsas prinsipləri**

Psixoloji yardımın göstərilməsi könüllülük, konfidensiallıq, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarına əməl edilməsi prinsipləri əsasında həyata keçirilir.

**Maddə 9. Psixoloji yardımın könüllülüyü**

9.1. Psixoloji yardım psixoloji yardım alan şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı əsasında göstərilir. Bu razılıq psixoloji yardım alan şəxsin psixoloji yardımla bağlı könüllü qərar qəbul etdiyini, psixoloji yardımın məqsədini, faydasını, həcmini, müddətini və tətbiq olunan psixoloji yardım metodunu, həmçinin psixoloji yardımdan imtina və onun dayandırılması imkanı barədə ona təqdim edilmiş məlumatı başa düşməsini nəzərdə tutur. Heç kəs psixoloji yardım almağa məcbur edilə bilməz.

9.2. Psixoloji yardım alan şəxs psixoloji yardım göstərən müəssisəni və psixoloqu, o cümlədən psixoloji yardımın növünü və onun göstərilmə şərtlərini sərbəst seçmək hüququna malikdir.

9.3. Psixoloji yardım alan şəxs yardımın alınmasından istənilən vaxt imtina edə və ya onu dayandıra bilər.

9.4. Bu qanunun 9.5-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, 14 yaşına çatmamış şəxslərə psixoloji yardım yalnız onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə, 14 yaşı tamam olmuş şəxslərə isə onların razılığı ilə göstərilir.

9.5. 14 yaşına çatmamış şəxslərə valideynlərin və ya digər qanuni nümayəndələrinin razılığı olmadan psixoloji yardımın göstərilməsinə aşağıdakı hallarda yol verilir:

9.5.1. valideynləri və ya digər qanuni nümayəndələri tərəfindən 14 yaşına çatmamış şəxsə münasibətdə qəddar rəftar, fiziki, psixoloji və seksual zorakılıq faktları aşkar edildikdə;

9.5.2. 14 yaşına çatmamış şəxs sosial təhlükəli vəziyyətdə olduqda;

9.5.3. 14 yaşına çatmamış şəxs fövqəladə hadisələrlə üzləşdikdə;

9.5.4. səhiyyə, təhsil və sosial xidmət müəssisələrində kütləvi psixoloji profilaktika tədbirləri həyata keçirildikdə;

9.5.5. 14 yaşına çatmamış şəxs psixoloji yardım almaq üçün telefon, internet və digər texniki vasitələrdən istifadə edərək anonim müraciət etdikdə;

9.5.6. 14 yaşına çatmamış şəxs cinayətin şahidi olduqda və ya cinayətin törədilməsindən zərər çəkdikdə.

9.6. Şəxsin psixoloji vasitə və üsulların sınaqdan keçirilməsinə, elmi tədqiqat işlərində və ya tədris prosesində foto və videoçəkilişlərə cəlb olunması, bu qanunun 10.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla, psixoloji yardım alan şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı ilə həyata keçirilir.

**Maddə 10. Psixoloji yardımın konfidensiallığı və anonimliyi**

10.1. Şəxsin psixoloji vəziyyəti, psixoloji yardım almaq üçün müraciəti, təyin olunmuş psixoloji testlərin nəticələri və ona göstərilən psixoloji yardım haqqında məlumatlar konfidensial hesab edilir.

10.2. Bu qanunun 10.1-ci maddəsində göstərilən məlumatların psixoloji yardım alan şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olmadan açıqlanması, bu qanunun 10.3-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, qadağandır.

10.3. Şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olmadan konfidensial məlumatların açıqlanmasına aşağıdakı hallarda yol verilir:

10.3.1. cinayət mühakimə icraatı zamanı şəxsin psixoloji vəziyyəti ilə əlaqədar məlumatların alınması zərurəti yarandıqda, təhqiqat və istintaq orqanlarının, prokurorun və ya məhkəmənin sorğusu əsasında;

10.3.2. yetkinlik yaşına çatmayanların mənafelərinin qorunması məqsədi ilə mülki məhkəmə icraatı zamanı məhkəmənin sorğusu əsasında;

10.3.3. psixoloqun fəaliyyətində cinayət və ya inzibati xəta tərkibinin əlamətləri aşkar edildikdə;

10.3.4. psixoloji yardım alan şəxsin və digər şəxslərin həyatı və sağlamlığı üçün bilavasitə təhlükə yarandıqda;

10.3.5. ağır və xüsusilə ağır cinayətin hazırlanması və ya törədilməsi barədə məlumat olduqda;

10.3.6. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şəxs məcburi və qeyri-könüllü qaydada psixiatriya müəssisəsinə yerləşdirildikdə;

10.3.7. həqiqi hərbi xidmətə çağırışın və səfərbərliyin təmin olunması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusu əsasında.

10.4. Daha uyğun psixoloji yardımın göstərilməsi, psixologiya sahəsində ixtisaslı mütəxəssislərin hazırlanması, fundamental, tətbiqi və eksperimental tədqiqatların aparılması məqsədilə psixoloji yardımın göstərilməsi zamanı üçüncü şəxsin iştirakına və ya məlumatların toplanılmasına yalnız psixoloji yardım alan şəxsin və ya onun qanuni nümayəndəsinin yazılı razılığı ilə yol verilir. Əldə olunan məlumatlardan elmi tədqiqatlarda, nəşrlərdə və kütləvi informasiya vasitələrində istifadəyə bu məlumatların adsızlaşdırılması şərti ilə yol verilir.

10.5. Psixoloji yardım göstərən şəxslər konfidensial məlumatların yayılmasına görə qanunla nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

10.6. Bu qanunun 6.2-ci maddəsində göstərilən hallar istisna olmaqla, psixoloji yardım alan şəxsin arzusu ilə ona bu yardım anonim göstərilə bilər.

10.7. Anonim psixoloji yardım psixoloji yardım alan şəxsin göstərdiyi məlumatlar (ad, yaş və s.) əsasında onun şəxsiyyətini təsdiq edən sənəd təqdim olunmadan, psixoloji yardım göstərən şəxslə müqavilə bağlanmadan və psixoloji yardımın nəticələri rəsmiləşdirilmədən göstərilir.

### 4-cü fəsil

### PSİXOLOJİ YARDIM İŞTİRAKÇILARININ HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**Maddə 11. Psixoloji yardım göstərmək hüququ olan şəxslər**

11.1. Psixoloji yardım bu qanunun tələbləri nəzərə alınmaqla psixoloji yardım göstərmək hüququ olan şəxslər (psixoloq və ya klinik (tibbi) psixoloq) tərəfindən göstərilir.

11.2. İlkin psixoloji yardım fövqəladə hadisə zamanı hadisə yerində olan və fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına cəlb olunmuş şəxslər, eləcə də ilkin psixoloji yardım göstərmək üzrə müəyyən vərdişləri və təcrübəsi olub, lakin psixologiya ixtisası üzrə təhsil almayan şəxslər tərəfindən də göstərilə bilər.

11.3. Psixoloji yardım göstərmək hüququ olan şəxslərə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

11.4. Şəxsiyyət əleyhinə olan cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər psixoloji yardım göstərə bilməzlər.

11.5. Klinik (tibbi) psixoloq bu qanunun 18-ci və 19-cu maddələrinin tələbləri nəzərə alınmaqla fəaliyyət göstərir.

11.6. Psixoloji yardım göstərən şəxslərin işlədikləri müəssisələrin rəhbərləri onların əlavə təhsili üçün şərait yaratmalıdırlar.

**Maddə 12. Psixoloji yardım göstərmək hüququ olan şəxslərin hüquqları və vəzifələri**

12.1. Psixoloji yardım göstərmək hüququ olan şəxslərin aşağıdakı hüquqları vardır:

12.1.1. psixoloji yardım göstərən zaman bu qanuna uyğun olaraq yardımın növünü, formasını, həcmini, vasitə və üsullarını sərbəst seçmək;

12.1.2. şərəf və ləyaqətini, peşəkar nüfuzunu müdafiə etmək;

12.1.3. bu qanunda nəzərdə tutulmuş hallarda psixoloji yardım göstərməkdən imtina etmək;

12.1.4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlavə təhsil almaq;

12.1.5. qanunda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

12.2. Psixoloji yardım göstərmək hüququ olan şəxslərin vəzifələri aşağıdakılardır:

12.2.1. psixoloji yardım alan şəxsə peşəkar, keyfiyyətli və psixoloji yardım standartlarına uyğun psixoloji yardım göstərmək;

12.2.2. psixoloji yardım alan şəxsə onun hüquqları, vəzifələri, göstərilən yardımın növləri, formaları, şərtləri, qaydaları və ehtimal edilən nəticələri haqqında məlumat vermək;

12.2.3. psixoloji yardım göstərməkdən imtina etdikdə, bunun səbəbləri barədə psixoloji yardım alan şəxsə və ya onun qanuni nümayəndəsinə məlumat vermək;

12.2.4. yardım göstərdikləri şəxslərin hüquqlarına, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

12.2.5. psixoloji yardım standartlarına və qaydalarına, psixoloqun peşə etikasına riayət etmək;

12.2.6. bu qanunun tələblərinə uyğun olaraq psixoloji yardım alan şəxs haqqında məlumatın konfidensiallığını təmin etmək;

12.2.7. psixoloji müayinənin nəticələrinə uyğun olaraq digər yüksəkixtisaslı mütəxəssislərlə psixoloji konsilium təşkil etmək;

12.2.8. qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

**Maddə 13. Psixoloji yardım alan şəxslərin hüquqları və vəzifələri**

13.1. Psixoloji yardım alan şəxslərin hüquqları aşağıdakılardır:

13.1.1. bu qanuna və psixoloji yardım standartlarına uyğun olaraq peşəkar və ixtisaslı psixoloji yardım almaq;

13.1.2. qanuni maraqlarını, şərəf və ləyaqətini müdafiə etmək;

13.1.3. hüquqları, psixoloji problemin xarakteri, tətbiq edilən psixoloji yardım metodları haqqında məlumat almaq;

13.1.4. psixoloji yardımın göstərilməsindən imtina etmək və ya onu dayandırmaq.

13.2. Psixoloji yardım alan şəxslərin vəzifələri aşağıdakılardır:

13.2.1. psixoloji yardım göstərən şəxslə əməkdaşlıq etmək;

13.2.2. psixoloji yardım göstərən şəxsin, digər şəxslərin hüquqlarına, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

13.2.3. psixoloji yardımın göstərilməsi ilə bağlı psixoloji yardım göstərən şəxslə bağladığı müqaviləyə əsasən üzərinə götürdüyü öhdəliklərə riayət etmək.

**Maddə 14. Psixoloji yardımın göstərilməsindən imtinanın və ya onun dayandırılmasının əsasları**

14.1. Psixoloji yardım göstərən şəxslərin aşağıdakı hallarda bu yardımı göstərməkdən imtina etmək və ya dayandırmaq hüququ vardır:

14.1.1. psixoloji yardım göstərilməsinə əsas olmadıqda;

14.1.2. psixoloji yardımın göstərilməsinə əks-göstərişlər olduqda;

14.1.3. şəxs və ya onun qanuni nümayəndəsi psixoloji yardımın göstərilməsinə razılıq verməkdən imtina etdikdə;

14.1.4. psixoloji yardım alan şəxsin tələbi ilə psixoloji yardım göstərən şəxsin təklif etdiyi psixoloji yardım növü arasında uyğunsuzluq olduqda;

14.1.5. psixoloji yardım alan şəxs psixoloji yardım göstərən şəxslə bağladığı müqaviləyə riayət etmədikdə;

14.1.6. psixoloji yardım göstərən şəxsin həyat və sağlamlığı üçün təhlükə yarandıqda.

14.2. Psixoloji yardım göstərən şəxs bu yardımın göstərilməsindən imtina etdikdə və ya yardımı dayandırdıqda bunun səbəblərini yazılı şəkildə açıqlamalı və bu barədə psixoloji yardım alan şəxsi və ya onun qanuni nümayəndəsini, müqavilə bağladığı, eləcə də fəaliyyət göstərdiyi müəssisəsinin müdiriyyətini məlumatlandırır.

### 5-ci fəsil

### TƏHSİL VƏ SƏHİYYƏ MÜƏSSİSƏLƏRİNDƏ PSİXOLOJİ YARDIMIN XÜSUSİYYƏTLƏRİ

**Maddə 15. Təhsil müəssisələrində psixoloji yardım**

15.1. Azərbaycan Respublikasında təhsilin bütün pillə və səviyyələrində sağlam psixoloji mühiti, fərdi inkişafı və təhsilalanların psixoloji tələbatlarını təmin etmək məqsədilə psixoloji yardım göstərilməsinə təminat verilir.

15.2. Təhsil müəssisələrində psixoloji yardım "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada bu qanunun 16-cı və 17-ci maddələrinin tələblərinə riayət edilməklə həyata keçirilir.

**Maddə 16. Təhsil müəssisələrində psixoloji müayinə**

16.1. Təhsil müəssisələrində psixoloji müayinə təhsilalanın ehtiyaclarını müəyyənləşdirmək məqsədilə aparılır və onun maraqları ilə ziddiyyət təşkil edə bilməz.

16.2. Psixoloji müayinə təhlükəsizliyi və konfidensiallığı təmin edən şəraitdə həyata keçirilməlidir.

16.3. Təhsil müəssisələrində aparılmış psixoloji müayinənin nəticələri barədə məlumat aşağıdakı şəxslərə verilir:

16.3.1. müayinə olunan şəxsin özünə və (və ya) onun qanuni nümayəndəsinə;

16.3.2. bilavasitə tədrisi həyata keçirən müəllimə (müəllimlərə), təhsil müəssisəsinin rəhbərinə 14 yaşına çatmamış şəxslər barəsində yalnız qanuni nümayəndənin, 14 yaşı tamam olmuş şəxslər barəsində isə özünün razılığı olduqda.

16.4. Psixoloji müayinənin nəticələri təhsilalanın valideynləri və ya digər qanuni nümayəndələri ilə müzakirə olunmalıdır və psixoloji yardımın digər növlərinin tətbiqinə ehtiyac yarandıqda bu qanunun 9.5-ci maddəsinin tələblərinə riayət edilməlidir.

**Maddə 17. Təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq**

17.0. Təhsil müəssisələrində psixoloji yardım göstərən şəxs:

17.0.1. təhsil müəssisələrində psixoloji yardım göstərilməsi ilə bağlı bilavasitə tədrisi həyata keçirən müəllimi (müəllimləri), təhsil müəssisəsinin rəhbəri, valideynlər və digər qanuni nümayəndələr ilə əməkdaşlıq etməli, ehtiyac olduqda onlara peşəkar məsləhətlər verməlidir;

17.0.2. təhsilalanın psixoloji ehtiyacları və problemləri haqqında valideynləri məlumatlandırmalı və onlara məsləhət verməli, ehtiyac olduqda onlar üçün profilaktik psixoloji tədbirlər təşkil etməlidir.

*Ardı 3-cü səh.*

# Psixoloji yardım haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

**Maddə 18. Səhiyyə müəssisələrində psixoloji yardım göstərmək hüququ olan şəxslər**

18.1. Mülkiyyət növündən asılı olmayaraq səhiyyə müəssisəsində psixoloji yardım klinik (tibbi) psixoloqlar tərəfindən həyata keçirilir. Klinik psixoloqların fəaliyyət dairəsinə psixopatologiya, inkişaf psixologiyası, neyropsixologiya, davranış psixologiyasının əsasları, sağlamlıq psixologiyası və psixoterapiya daxildir.

18.2. Klinik (tibbi) psixoloqlar səhiyyə müəssisələrində psixoloji yardım göstərmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) ixtisas attestatı almalıdırlar.

18.3. Bu qanunun 18.2-ci maddəsində nəzərdə tutulan ixtisas attestatının forması və verilməsi, attestatın qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 19. Səhiyyə müəssisələrində psixoloji yardım**

19.1. Səhiyyə müəssisələrində psixoloji yardım aşağıdakıları əhatə edir:

19.1.1. psixoloji testlər vasitəsilə psixi (zehni, emosional, davranış) və (və ya) interpersonal pozuntuların, psixoloji tələbatların və ya problemlərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi;

19.1.2. psixoloji və psixi sağlamlıqla bağlı olan məsələlər üzrə tövsiyələrin (məsləhətlərin) verilməsi;

19.1.3. psixi və ya fiziki sağlamlıqla bağlı olan problemlərdən əziyyət çəkən insanlara müxtəlif psixoloji yardım növlərinin, o cümlədən psixoterapiya, ailə terapiyası və psixoloji reabilitasiya və psixoloji korreksiya yardımların göstərilməsi.

19.1.4. psixoloji yardım alan şəxsləri, onların ailə üzvlərini, onlara yardım göstərən tibb işçilərini psixoloji və psixi sağlamlıq məsələləri ilə bağlı maarifləndirmək və tövsiyələr vermək.

19.2. Klinik psixoloji yardım yalnız səhiyyə müəssisələrində göstərilir.

19.3. Klinik psixoloji yardım göstərilməsi zamanı klinik (tibbi) psixoloq tərəfindən dərman preparatlarının təyin, o cümlədən insan orqanizmini mexaniki və ya digər təsirlərə (cərrahiyyə, lazer, ionlaşdırıcı şüa, ultrasəs, elektrokonvulsiv terapiya) məruz qoyan müalicə üsullarından istifadə edilməsi qadağandır.

19.4. Səhiyyə müəssisələrində psixoloji yardımın göstərilməsinə nəzarət tibb müəssisəsinin rəhbərliyi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən həyata keçirilir.

19.5. Psixoloji vəziyyətin qiymətləndirilməsi, psixoloji problemlərin aşkarlanması və ehtimal olunan psixi pozuntunun diaqnozunun dəqiqləşdirilməsi məqsədilə səhiyyə müəssisələrinin psixoloji müayinə keçirmək hüququ vardır. Psixoloji müayinənin nəticələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi formaya uyğun olaraq tərtib olunur.

**6-cı fəsil**

**YEKUN MÜDDƏALAR**

**Maddə 20. Psixoloji yardım sahəsində tədqiqatlar**

20.1. Psixoloji yardım sahəsində psixoloji yardım alan şəxslərin həyatına, sağlamlığına, psixoloji rifahına və ya ləyaqətinə zərər yetirə biləcək tədqiqatların aparılması qadağandır.

20.2. Şəxsin psixoloji tədqiqat işlərində obyekt kimi istifadəyə cəlb olunması bu qanunun 9.6-cı maddəsinə uyğun olaraq həyata keçirilir.

20.3. Psixoloji tədqiqat aparan elmi təşkilatlarda psixoloji yardımın göstərilməsi ilə bağlı etik davranış məsələlərinə baxan etika komissiyaları yaradılmalı və bu cür tədqiqatların aparılması həmin komissiya ilə razılaşdırılmalıdır.

20.4. Uzunmüddətli psixoloji tədqiqatların aparılması zamanı şəxsin yazılı razılığının qüvvədə olma müddəti 1 (bir) ildir.

20.5. Psixoloji tədqiqat aparan subyektlər iştirakçıların anonimliyinin qorunmasına və məlumatların konfidensiallığının saxlanılmasına görə məsuliyyət daşıyırlar.

**Maddə 21. Qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 22. Keçid müddəa**

Bu qanunla klinik (tibbi) psixoloq kimi fəaliyyət göstərmək üçün müəyyən edilmiş tələblər bu qanun qüvvəyə minənədək psixoloq kimi fəaliyyət göstərən şəxslərə şamil edilmir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

# "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin qanunun 1.0.4-cü maddəsinə uyğun olaraq psixoloji yardımın növünə, formasına, müddətinə və keyfiyyətinə dair minimum tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.4. həmin qanunun 6.5-ci maddəsinə uyğun olaraq ödənişsiz psixoloji yardımın göstərilməsi qaydası və şərtlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.5. həmin qanunun 11.3-cü maddəsinə uyğun olaraq psixoloji yardım göstərən şəxslərə dair tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin qanunun 18.3-cü maddəsinə uyğun olaraq klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının formasını və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. həmin qanunun 5-ci maddəsində nəzərdə tutulmuş vəzifələrin, habelə 7.1-ci və 19.4-cü maddələrində nəzərdə tutulmuş səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanlarına dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.4-cü, 6.5-ci, 7.1-ci, 10.3.7-ci, 11.3-cü, 18.2-ci, 18.3-cü, 19.4-cü və 19.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin qanunun 1.0.4-cü, 6.5-ci, 11.3-cü və 18.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

3.3. həmin qanunun 18.2-ci və 19.5-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

3.4. həmin qanunun 10.3.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 yanvar 2019-cu il*

# Kürdəmir rayonunun Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,8 milyon (səkkiz milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

# Milli Məclisin Regional məsələlər və Gənclər və idman komitələrinin yaz sessiyasında ilk iclasları keçirilib



Yanvarın 25-də Milli Məclisin Regional məsələlər komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

Komitənin sədri Arif Rəhimzadə 2018-ci ilin payız sessiyasının yekunlarından danışıb. Bildirilib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 16 məsələ müzakirə edilib, onlardan 14-ü qanun layihəsidir. Sessiya ərzində komitənin ünvanına daxil olmuş 86 təklif, ərizə və şikayətin 52-si araşdırılıb və lazımi tədbir görülməsi üçün müvafiq təşkilatlara göndərilib. Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub və təsdiqlənib.

İşlər planına "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda, Torpaq Məcəlləsində, "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamədə, "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihələri daxildir.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycanda bələdiyyə aktlarının hüquqi ekspertizasına diqqət artırılıb. Ötən il bələdiyyə aktlarının 2200-dən çoxunun ləğv edilməsi və ya dəyişdirilməsi ilə bağlı təkliflər verilib. Bələdiyyələr bu təklifləri qəbul edib, aktlarda düzəlişlər ediblər. Diqqətə çatdırılıb ki, doqquz bələdiyyə təklifləri icra etmədiyi üçün onlarla bağlı məhkəmədə iddia qaldırılıb. Bu iddialardan dördü baxılaraq təmin edilib, beş iş isə məhkəmələrin icraatındadır. Bildirilib ki, bələdiyyə qanunvericiliyinə əməl etməyən bələdiyyə sədrləri ilə bağlı inzibati tənbeh tədbirlərinin görülməsinə dair müəyyən dəyişiklik olunub.

Sonra deputatlar fikir və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra məsələ səsə qoyularaq qəbul edilib.

❖ ❖ ❖

Yanvarın 25-də Milli Məclisin Gənclər və idman komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

Komitənin sədri Ülvi Quliyev gündəlikdəki məsələlər barədə məlumat verib. 2018-ci ilin payız sessiyasının yekunlarından bəhs edən Ü.Quliyev bildirib ki, hesabat dövründə komitənin 3 iclası keçirilib, 5 məsələ müzakirə edilib. Sessiya ərzində komitəyə daxil olan müraciətlər müvafiq ünvanlara göndərilib, vətəndaşlar qəbul edilib. Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub və təsdiqlənib.

Daha sonra "Gənclər siyasəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edilib. Qeyd edilib ki, bu gün dünyada gedən ictimai siyasi proseslər istənilən ictimai sferanın inkişafını stimullaşdırır. Qanunvericilik bazasının təkmilləşdirilməsi bu inkişafı şərtləndirən əsas amillərdən biri olduğu üçün hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması qarşıda duran önəmli vəzifələrdəndir. "Gənclər siyasəti haqqında" qanunda ediləcək dəyişikliklər də məhz bu vəzifələri ehtiva edir.

Diqqətə çatdırılıb ki, layihənin zəruriliyini əsaslandıran iki fundamental hüquqi sənədin biri Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", digəri isə dövlət başçısının 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət proqramlarının həyata keçirilməsi üzrə tədbirlər planlarıdır. Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və gənclər siyasətinin həyata keçirilməsinin səmərəliliyinin artırılmasını ehtiva edən bu iki sənədin müvafiq olaraq 6.1.1-ci və 5.11.1-ci yarımbəndləri ilə normativ hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili və onların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması tədbir kimi müəyyən edilib.

Müzakirədən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***AZƏRTAC***

# Mükəmməl infrastruktur layihələri Azərbaycana iqtisadi və siyasi dividendlər qazandırır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına verdiyi müsahibəsində ölkəmizin bu sahədə qarşıya qoyduğu hədəfləri açıqlayaraq demişdir: "Biz infrastruktur layihələrinə vəsaiti dövlət büdcəsindən yatırmışıq və biz anlayırıq ki, bu vəsaitin faydasını bir çox ildən sonra görəcəyik. Lakin, əvvəl də qeyd etdiyim kimi, ilkin olaraq biz öz xalqımız üçün çox yaxşı şərait yaratmaq istəyirik. Biz infrastrukturu yeniləmək istəyirdik və biznes dairələrinin faydalana biləcək şərait yaratmaq istəyirdik. Eyni zamanda, Azərbaycanda nəqliyyat qovşağının yaradılması bizə Şərqdən Qərbə və Şimaldan Cənuba vacib tranzit ölkə olmaq imkanını verəcək. Bu investisiyalar gələcək üçün yatırılıb. Ola bilsin ki, biz gələcək on il ərzində yatırdığımız vəsaiti geri götürəcəyimizi gözləmirik. Lakin bizim planımız neft və qaz sektorundan başqa yeni imkanlar və gəlir mənbəyi yaratmaqdır. Bir gün neft və qaz tükənəcək, lakin coğrafiyamızı nəzərə alsaq, nəqliyyat infrastrukturu həmişə qalacaq".

Ölkəmizin Asiya ilə Avropa arasında körpü rolunun oynamasında Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsi xüsusi önəm daşıyır. Bu dəmiryolu Şərqdən Qərbə və əks istiqamətə malların daşınmasını xeyli asanlaşdırıb. Həmin yolun əhəmiyyəti ondan ibarətdir ki, bu, həm iqtisadi cəhətdən sərfəlidir, həm də vaxt itkisinin qarşısını alır. Marşrutun qısa olmağı maya dəyərini aşağı salır, yüklər alıcıya vaxtında çatdırılır. Belə hal həm mal göndərənə, həm də mal qəbul edənə sərfəlidir.

Onu da qeyd edək ki, "Şərq-Qərb nəqliyyat dəhlizi"nin uğurlu fəaliyyəti üçün Orta Asiya ölkələri ilə əməkdaşlıq genişləndirilir. Bu məqsədlə Türkmənistan, Əfqanıstan və Tacikistanla səmərəli əməkdaşlıq edilir. Həmin ölkələrdən Azərbaycan üzərindən Avropaya və əks istiqamətə mal göndərilir. Hazırda Qırğızıstanla da bu məqsədlə danışıqlar aparılır. Yaxın gələcəkdə həmin ölkənin də "Şərq-Qərb nəqliyyat dəhlizi"ndən istifadə edəcəyi şübhəsizdir. Qazaxıstan isə bu sahədə ənənəvi tərəfdaşımızdır.

Məlum olduğu kimi, Azərbaycan təkcə tranzit ölkəsi deyil, həm də nəqliyyat qovşağıdır. Şərqdən Qərbə gedən marşrutla yanaşı, Şimal-Cənub marşrutunda da ölkəmiz əsas rol oynayır. Ötən il bu nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Daha çox yükün daşınması üçün ölkə daxilindəki dəmiryollarının yenidən qurulması prosesinə başlanılıb. Yenidənqurma başa çatdıqdan sonra Şimal-Cənub dəhlizindən daha çox yükün daşınması mümkün olacaq.

Dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycanın təşəbbüsü ilə yaradılan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizi bir çox dövlətlərlə sıx bağlayacaq. Bu qarşılıqlı fayda əsasında əməkdaşlıq ölkəmizin siyasi nüfuzunu daha da qaldıracaq. Dünya praktikasında son illər cərəyan edən siyasi proseslərə nəzər yetirdikdə görürük ki, dövlətlərarası münasibətlərdə iqtisadi amillər əsas rol oynayır. Hər bir ölkə hətta mübahisəli məsələləri belə, danışıqlar yolu ilə həll etməyə çalışır. Bu, bir daha onu göstərir ki, müasir dünyada iqtisadi maraq siyasi ambisiyadan üstündür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan beynəlxalq antikorrupsiya fəaliyyətində mühüm rol oynayır

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir, ölkəmiz Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.

AZƏRTAC xəbər verir ki, yanvarın 21-24-də BMT-nin Vyanadakı qərargahında IAACA-nın bir sıra iclasları keçirilib. Tədbirlərdə Azərbaycanı ədliyyə naziri, qurumun vitse-prezidenti Fikrət Məmmədovun başçılığı ilə nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə respublika Baş prokurorunun müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, habelə nazirliyin və Baş Prokurorluğun məsul şəxsləri də daxil olublar.

IAACA-nın rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclasında əsas təşkilati məsələlərə baxılıb, o cümlədən Assosiasiyanın Ümumi Yığıncağı və İllik Konfransının gündəlikləri təsdiqlənib, təşkilatın Azərbaycanın təklifləri nəzərə alınmaqla razılaşdırılmış yeni Konstitusiyası Ümumi Yığıncağın müzakirəsinə çıxarılıb.

Sonra dünyanın 70 dövlətindən 260-dan çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə, ixtisaslaşmış antikorrupsiya orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin, tanınmış hüquqşünasların və alimlərin iştirak etdikləri illik yığıncaqların təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov, IAACA-nın prezidenti, Qətərin baş prokuroru Dr. Ali Al Marri və xüsusi qonaq qismində iştirak edən Malayziyanın Baş naziri Mahathir Məhəmməd çıxış ediblər.

Assosiasiyanın Ümumi Yığıncağında IAACA-nın yeni Konstitusiyası təsdiq edilib, təşkilatın gələcək fəaliyyətinə və antikorrupsiya tədrisinə dair proqramlar qəbul olunub, İcraiyyə Komitəsinin səlahiyyətlərinə dair məsələyə baxılıb.

İllik Konfransda BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının qəbul olunmasının 15 illiyi və bu müddət ərzində onun implementasiyası, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyində bu sosial bəla ilə mübarizənin rolu, həmçinin antikorrupsiya tədrisi, beynəlxalq əməkdaşlıq və s. aktual məsələlər müzakirə olunub.

Plenar sessiyada BMT-nin rəsmiləri Azərbaycanın Assosiasiyaya yaradıldığı gündən daim göstərdiyi siyasi və əməli dəstəyi, habelə qurumun işinə verdiyi dəyərli töhfələri xüsusi vurğulayıblar.

Konfransda ilk məruzə ilə Azərbaycan nümayəndə heyətinin rəhbəri, IAACA-nın vitse-prezidenti F.Məmmədov çıxış edib. Nazir korrupsiyanın ciddi təhlükəsindən danışaraq BMT statistikasına əsasən onun beynəlxalq aləmə dünya ümumi daxili məhsulunun 5 faizini təşkil edən 2,6 trilyon dollar ziyan vurduğunu qeyd edib. Çıxışda bu sosial bəlaya qarşı qlobal mübarizə tədbirlərindən, Korrupsiyaya Qarşı Konvensiyanın dünyada implementasiyasının nəticələrindən, bu sahədə IAACA-nın mühüm rolundan və səmərəli fəaliyyətindən bəhs edilib, ölkəmizin assosiasiya ilə fəal əməkdaşlığı qeyd olunub.

Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulduğunu və bu sahədə 2030-cu ilədək Gündəlikdən irəli gələn öhdəliklərin icrası ilə bağlı Azərbaycan Prezidentinin fərmanı ilə yaradılmış və Ədliyyə Nazirliyinin təmsil olunduğu Milli Əlaqələndirmə Şurasının fəaliyyətini qeyd edən nazir korrupsiyaya qarşı mübarizənin vacib hədəflərdən olduğunu, habelə konvensiyanın implementasiyası ilə bağlı respublikamızda dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq həyata keçirilən qəti tədbirləri diqqətə çatdırıb, genişmiqyaslı qanunvericilik və institusional islahatlar barədə məlumat verib, bu sahədə ölkəmizin nailiyyətlərini, o cümlədən Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və dünyada böyük marağa səbəb olan Azərbaycan brendi "ASAN xidmət"in müsbət təcrübəsini vurğulayıb.

Eyni zamanda, məhkəmə-hüquq islahatlarına toxunularaq məhkəmə sisteminin müstəqilliyinin gücləndirilməsi, bu fəaliyyətdə şəffaflığın artırılması, beynəlxalq aləmdə təqdir olunan hakimlərin ən şəffaf seçim prosesi, informasiya texnologiyaları ilə təchiz olunmuş yeni məhkəmə infrastrukturunun yaradılması və elektron məhkəmənin tətbiqi üzrə görülən əməli tədbirlərin korrupsiyanın qarşısının alınmasına xidmət etdiyi bildirilib.

Nazir ölkəmizin səmərəli beynəlxalq antikorrupsiya əməkdaşlığını qeyd edərək bu sahədə beynəlxalq təşkilatlarla müxtəlif təşəbbüslərindən danışıb.

Çıxışda tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələrinə baxmayaraq, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalına və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına xüsusilə cəlb olunub.

Sonra müzakirələr keçirilib. İştirakçılar tərəfindən ölkəmizdə həyata keçirilən islahatlara maraq göstərilərək bu sahədə dövlət dəstəyinin əhəmiyyəti xüsusi vurğulanıb. Müvafiq suallar cavablandırılarkən qeyd edilib ki, bütün bu islahatların təməlində və nailiyyətlərin qazanılmasında dövlətimizin güclü siyasi iradəsi dayanır.

İclaslarda Azərbaycan nümayəndə heyətinin üzvləri fəal iştirak ediblər. K.Əliyev çıxışında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və rəhbərlik etdiyi Baş İdarə tərəfindən görülən preventiv tədbirlərdən danışıb, bu işdə əsas vasitələrdən biri kimi tədrisin rolundan bəhs edib. O, bu sahədə beynəlxalq antikorrupsiya treninqləri, o cümlədən ölkəmizin BMT-nin Vyanadakı Ofisi, Beynəlxalq Prokurorlar Assosiasiyası və Avstriyada yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyası ilə səmərəli əlaqələrini vurğulayıb.

Yekunda Azərbaycan tərəfinin təklifləri nəzərə alınmaqla korrupsiyaya qarşı mübarizədə səylərin gücləndirilməsinə və antikorrupsiya qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına dair Bəyannamə qəbul olunub.

Səfər çərçivəsində bir sıra dövlətlərin ədliyyə, məhkəmə, prokurorluq və antikorrupsiya orqanlarının rəhbərləri, habelə beynəlxalq təşkilatların rəsmiləri ilə ikitərəfli görüşlər keçirilib, əməkdaşlığa dair faydalı danışıqlar və ölkəmiz üçün prioritet olan sahələr üzrə qarşılıqlı fəaliyyətin perspektivlərinə dair müzakirələr aparılıb.

Tədbirlərdə Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov iştirak edib.



Diplomatın söhbəti

# Dostluq və qardaşlığın elçisi

*Türkiyə Respublikasının ölkəmizdəki səfiri Erkan Özoral 1965-ci ildə Ərzincanda anadan olub, Ankara Universitetinin məzunudur. Artıq 2 ildir ki, Azərbaycanda səfir kimi çalışan 53 yaşlı elçinin maraqlı həyat hekayəsi var. Diplomat kimi də karyerası zəngindir. Azərbaycana çox bağlıdır. 1980-ci ildə hələ məktəb illərində görüb sevdiyi xanımla ailə həyatı qurub...*

*Bir neçə faktı biz söylədik, amma həm diplomatik fəaliyyəti, həm də şəxsi həyatı ilə bağlı digər məqamları səfirin öz dilindən eşitmək daha maraqlıdır.*

## İmkan olsaydı, uşaqlığımı yenidən yaşayardım

- Uşaqlığımı əslində tam xatırlamıram. Necə bir uşaq olduğumu rəhmətlik anamdan soruşmaq mümkün olsaydı, indi o, sizə məni daha yaxşı təqdim edərdi. Qısa deyə bilərəm ki, ağıllı və sakit olmuşam. Valideynlərimi incitməmişəm və dərslərimi də yaxşı oxumuşam. İmkan olsaydı, uşaqlığımı yenidən yaşayardım.

Ankara Universitetinin Siyasi bilgilər fakültəsində, Beynəlxalq əlaqələr ixtisası üzrə təhsil almışam. 1989-cu ildə universiteti bitirdikdən sonra Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyində işə başlamışam. Fəaliyyətim boyunca Səudiyyə Ərəbistanında, Almaniyada, Bakıda, Litvada xidmət göstərmişəm.

1992-1994-cü illərdə Türkiyənin Riyad səfirliyində üçüncü katib, 1994-1997-ci illərdə isə Karlsruhe baş konsulluğunda müavin-konsul olaraq xidmətimi davam etdirdim. Oradakı fəaliyyətimi başa vurduqdan sonra Ankaraya geri qayıtdım. 1997-1999-cu illər ərzində Xarici İşlər Nazirliyində ikinci katib və baş katib olaraq çalışdım. Nəhayət, 1999-2003-cü illərdə Türkiyənin Berlindəki səfirliyində məsləhətçi işlədim. 2003-2005-ci illərdə isə yenidən Xarici İşlər Nazirliyinə geri döndüm və burda, protokol şöbəsində müdir olaraq çalışdım.

Bakıda ilk xidmət göstərdiyim illər 2005-2009-cu illərə təsadüf edir. O zaman Türkiyənin Azərbaycandakı səfirliyində baş məsləhətçi idim. 2014-cü ilin sentyabr ayından bura səfir təyin olunan müddətə qədər Türkiyə Xarici İşlər Nazirliyində "xarici işlər üzrə məsləhətçi elçi" olaraq çalışdım. Və nəhayət 11 oktyabr 2016-cı il tarixdə Azərbaycana səfir təyin olundum. Artıq üçüncü ilə keçib ki, Bakıdayam...

## Türkiyədə doğulan hər kəs Azərbaycanı tanıyır

- Türkiyədə doğulan hər kəs özünü tanımağa başladığı andan etibarən Azərbaycan haqqında məlumatlı olur. Azərbaycanın Türkiyənin qardaş ölkəsi olduğunu, xalqlarımızın eyni düşüncə, eyni sevinc və kədəri paylaşdığını hər kəs bilir. Yadımdadır, keçmiş sovetlər birliyi dövründə "Bakı" radiosunda səslənən Azərbaycan mahnılarını xüsusi zövqlə dinləyərdik. Azərbaycana sevgim belə yarandı. Bəli, bütün uşaqlığım Azərbaycana sevgi üzərində köklənmişdi. Bir-birimizi sevməyimizin bir səbəbi var - bir millət, iki dövlətik. Keçmişimiz, soyumuz birdir. Ona görə də uşaqlıqdan Azərbaycan haqqında eşitmişik.

Azərbaycanı ilk dəfə 1997-ci ilin sonunda görmüşəm. Bir işlə bağlı bura gəlmişdim. Onu da deyim ki, o vaxtkı Azərbaycanla indiki Azərbaycan arasında çox fərq var. Hətta heç müqayisəyə sığmayacaq qədər böyük dəyişiklik var. Yəqin ki, çoxları o zamanlar təyyarəyə minmək üçün düz 2 saat gözləməli olduğumuzu yaxşı xatırlayar. İndi isə Azərbaycan çox inkişaf edib, dəyişib və gözəlləşib. 2005-2009-cu illərdə Azərbaycana yenidən gəldim və bu dəfə səfirlikdə səfirin birinci məsləhətçisi olaraq işlədim. 2009-cu ilin sentyabr ayında isə fəaliyyətimi başa vurub getdim. Təbii ki, o zaman bura yenidən səfir olaraq geri gələcəyimi bilməyim qeyri-mümkün idi. Çünki bizim harada nə iş görəcəyimiz gedəcəyimiz zaman bəlli olur. Onu deyim ki, Türkiyədə bir diplomatın eyni yerdə iki dəfə xidmət göstərməsi çox nadir hallarda olur. Ona görə bura gələcəyimi düşünmürdüm.

## Türkiyəni təmsil etmək asan deyil, amma...

- Hər peşənin çətin və asan yönləri var. Fikrimcə, Türkiyə Cümhuriyyətinin diplomatı olmaq asan bir iş deyil, amma Türkiyənin səfiri olaraq Azərbaycanda xidmət göstərmək başqa bir duyğudur.

Əlbəttə ki, səfir olaraq işimizin yükü ağırdır, məsuliyyəti böyükdür, amma burda öz vətənimizdəymişik kimi xidmət göstəririk. Buna görə asan gəlir. Təkcə mən deyil, Türkiyədən bura ilk dəfə gələn hər kəs sanki özünü Türkiyədə bir şəhərdən başqa bir şəhərə gedirmiş kimi hiss edir. Azərbaycanda öz dilində danışmağın verdiyi bir rahatlıq, güvən var. Bura ilk gələndə çox qısa müddət ərzində öz qardaşlarınla bir arada olduğunu anlayırsan. Bu, başqa bir duyğudur. Hər kəslə eyni dili danışmağa başladığınız andan heç bir əngəl, heç bir problem qalmır.



*Bütün uşaqlığını Azərbaycana sevgi üzərində kökləyən Türkiyənin səfiri Erkan Özoral ölkəmizi ikinci vətən yox, elə vətən kimi qəbul edir*

"Türkiyənin Ərzincan şəhərində doğulmuşam. Uşaqlığım və gəncliyim Ankarada keçib. Yaxşı xatırlayıram ki, o vaxt hava qaralan kimi radioda "Bakı" FM dalğası yayımlanırdı. Ailəlikcə oturub dinləyərdik. Uşaqlığımız Azərbaycan musiqisinin sədaları altında keçib"

## Fərqli təamlar, fərqli dadlar...

- Bura ilk gəldiyimiz günlər elə də böyük çətinliklər yaşamadıq. Adaptasiya problemimiz də olmadı. İşimizlə bağlı olaraq fərqli yerlərə getmək, həmişə səfərlərdə olmaq bizim həyat tərzimizə dönüb. Xırda çətinliklərimiz oldu, Türkiyə üçün bir az darıxdıq, amma indi artıq onların hamısını unutmuşuq. Məsələn, mətbəxlərimiz bir az fərqli olduğundan ilk əvvəl bir az uyğunlaşma prosesi yaşadıq. Burda fərqli təamlar var. Plov, kabablarımız eynidir, amma dadları başqadır. Sizin ətiniz, çayınız daha dadlıdır.

Burda bizə və bütün Türkiyə vətəndaşlarına yaradılan hər bir şəraitdən razıyıq. Azərbaycanı öz vətənimiz hesab edirik. Türklər hələ Azərbaycan öz müstəqilliyini elan etmədən əvvəl bura gediş-gəliş etməyə başlayıb. 1990-cı illərdə sovet birliyi ilə Türkiyə arasındakı sərhəd açıldıqdan sonra ilk səfər edilən ölkə Azərbaycan idi. 1992-ci ildən burda yaşayan Türkiyə vətəndaşları da var. Hətta sovet dövründə də Azərbaycanla aramızda münasibətlər, gediş-gəliş olub. Bir çox azərbaycanlının Türkiyədə qohumu var, eləcə də türkiyəlilərin burda tanışları var. Bura mənim ikinci vətənim yox, elə vətənimdir. Azərbaycanda özümüzü xoşbəxt hiss edirik. Həmişə birlikdə xoşbəxt olaq.

## Muğamın verdiyi zövq tamam başqadır

- Təbii ki, həyatım ancaq səfir olaraq xidmət etməkdən ibarət deyil. Mədəni istirahətimi də səmərəli qurmağa çalışıram. İşdən sonra əsasən dostlarla birgə vaxt keçiririk. Azərbaycanın mədəni tədbirlərinə dəvət alırıq. İki dövlət, bir millət olduğumuz üçün mədəniyyətimiz də eynidir. Azərbaycanın bütün milli, mədəni dəyərləri elə bizim öz mədəniyyətimizin də bir parçasıdır. Azərbaycan və Türkiyə mədəniyyətini bir-birindən ayırmaq olmaz. Nəsimisiz, Füzulisiz türk ədəbiyyatını düşünmək mümkün deyil. Bizim bütün dəyərlərimiz, keçmişimiz ortaqdır. Biz Azərbaycan mahnılarını hələ sovetlər dövründə, soyuq müharibə dövründə Türkiyədə sevərək dinləyərdik. Türkiyədə Zeynəb Xanlarovanı tanımayan yoxdur. O və Rəşid Behbudov Türkiyədə ilk konsert verən Azərbaycan sənətçiləridir.

İndi də bir çox azərbaycanlı sənətçilər Türkiyədə mükafatlandırılırlar. Elə bu günlərdə Aygün Kazımova Türkiyədə "Altın kelebek" mükafatına layiq görülüb. Bütün Azərbaycan mahnılarını dinləməyi sevirəm, hər birindən zövq alıram. Muğamın verdiyi zövq isə başqadır. Qulağıma xoş gələn, məni rahatladan mahnıları həmişə dinləyirəm.

## Bizi gözü götürməyənlər çoxdur

- Boş zamanlarda Azərbaycanı gəzməyə çalışırıq. Azərbaycanın hər tərəfi çox gözəldir. Gəncə özünəxas memarlığı, Şəki qədimliyi ilə çox möhtəşəmdir. Bakıya da gələndə tamam başqa bir şəhərlə qarşılaşırsan. Bölgələrə gedəndə məni tanıyan hər kəs şəkil çəkdirmək üçün yaxınlaşır. Bu, diplomatın yaşayacağı bir şey deyil. Diplomatlar bir az qapalı olurlar, amma belə hallar çox xoş gəlir. Bu yaxınlarda Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Lənkəran, Astara bölgələrinə getdik.

İki ildir ki, burdayam. Mənim Türkiyə və Azərbaycanla bağlı söyləyəcəyim bir söz var ki, onu da ümummilli lider Heydər Əliyev deyib: "Biz bir millət, iki dövlətik". Və Atatürkün dediyi kimi, "Azərbaycanın sevinci ilə sevinir, kədəri ilə kədərlənirik". Azərbaycan Türkiyənin çətin anlarında həmişə yanında olub. Bizim ortaq dərdimiz var. Bilirsiniz ki, Türkiyənin 34 diplomatı erməni terrorçuları tərəfindən şəhid edilib. Bizi gözü götürməyənlər çoxdur.

Türkiyə ilə Azərbaycanı bir-birinə anlatmaq üçün özəl kəlmələrə ehtiyac yoxdur. Deyə biləcəyim tək budur: Türkiyə sizin qardaşınızdır. Həmişə dediyim bir söz var, kaş ki, imkan ola Türkiyənin 80 milyon vətəndaşının hər biri gəlib Azərbaycanı görsün. Hər bir azərbaycanlı da Türkiyəyə getsin. Bir-birimizə nə qədər qardaş olduğumuzu hər kəs görəcək.

Yeni ili Bakıda qeyd etdik. Burada daha maraqlı olur. Qonaqlar üçün Türkiyə yeməkləri hazırlayırıq, çünki Azərbaycan mətbəxini yaxşı bacarmarıq. Azərbaycan mətbəxindən ən çox sevdiyim qaralı plovdur. Türkiyədə olmayan yeməklər də var. Məsələn, soyutma, xaşlama. Bunlar da çox dadlıdır. 2020-ci ildə artıq fəaliyyətim başa çatır. Bura üçün çox darıxacağam.

## Bənzərsiz qardaşlıq nümunəsi

- Türkiyə ilə Azərbaycan arasında dünyaya örnək olacaq münasibət var. Bizim bu gün nail olduğumuz bu münasibət həddi dünyada başqa heç bir iki ölkə arasında yoxdur. Aramızdakı iqtisadi bağları bir yana qoysaq, bizi bu gün bir arada tutan çox mühüm şeylər var. Eyni sevinci, kədəri, düşüncəni paylaşdığımız üçün hər zaman birlikdəyik. Gəldiyimiz bu səviyyənin, siyasi, iqtisadi əlaqələrimizin zəifləməsinə icazə vermədən daha da irəliləmək üçün yeni layihələr həyata keçirməliyik, qardaşlığımıza yaraşan işlər görməliyik.

Artıq 2018-ci ili baş vurduq. Ötən il Türkiyə-Azərbaycan münasibəti baxımından çox yaddaqalan oldu. Mühüm layihələr həyata keçirildi. Bunlardan birincisi Azərbaycanın təbii qazını Avropaya daşıyacaq TANAP qaz kəmərinin açılışı idi. Bu qaz kəməri vasitəsilə Azərbaycanın Avropanın enerji təminatına çox mühüm töhfəsi olacaq. Bundan başqa, "STAR" zavodunun açılışı oldu. Bu layihə ilə Azərbaycan Türkiyəyə ən çox investisiya yatırmış xarici ölkədir. İnvestisiyanın həcmi 6 milyard dollardan çoxdur. Bunun Türkiyənin iqtisadi inkişafına çox böyük töhfəsi olacaq.

Daha möhtəşəm bir tədbiri xatırlatmaq istərdim. 15 sentyabrda Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi tədbirləri çərçivəsində Bakının bolşevik-daşnak silahlı birləşmələrindən azad edilməsinin 100 illiyi münasibətilə hərbi parad keçirildi. Türkiyə və Azərbaycanın ordusu 100 il əvvəl olduğu kimi o gün də birlikdə addımladı. Paradı qəbul edən, salamlayan hər iki ölkənin başçısı idi. Bu, dünya tarixində ilkdir. Bu, bizim qardaşlığımızın yüksəldiyi zirvə nöqtəsidir. Bu, tarixə özəl olaraq yazılan bir hadisədir. Bunların hamısı bizə qürur verir.

Cənab Prezident İlham Əliyevin Azərbaycanla Türkiyə arasında münasibətlərin inkişafı üçün mühüm xidmətləri olmuşdu. Azərbaycan onun rəhbərliyi ilə atası, mərhum ümummilli lider Heydər Əliyevin açdığı yolda irəliləyərək dünyanın ən hörmət edilən, sözü dinlənilən ölkələrindən biri halına gəldi. Bu gün Azərbaycan mədəniyyət, idman, siyasət kimi bir çox fərqli sahələrdə mühüm tədbirlərə uğurlu şəkildə evsahibliyi edir. Bütün bunlar Azərbaycanın nail olduğu iqtisadi inkişafın təzahürüdür ki, o da Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir.

Onun sayəsində Türkiyə Azərbaycan münasibətləri "İki dövlət, bir millət" şüarına uyğun olaraq irəliləyərək bugünkü səviyyəsinə çatıb. Bu gün Azərbaycan Türkiyədəki ən böyük xarici investordur. İki ölkənin dövlət başçıları arasındakı dostluqdan biz də qürur duyur və bundan ilham alırıq.

Bir sözlə, bizim qardaşlıq münasibətimiz dünyaya nümunədir və bənzərini tapmaq çox çətindir...

*Göründüyü kimi, ta uşaqlıqdan Azərbaycana sevgi ilə böyüyən Erkan bəy burada əvəzsiz xatirələrə sahiblənib. Onun fikrincə, aramızdakı fərqlilik və bənzərliklərə baxmayaraq iki ölkə dostluğu dünyada bir nümunə yaradıb. Ölkəmizdə özünü diplomatik missiyanı gerçəkləşdirən başqa ölkə vətəndaşı kimi deyil, elə bu millətin bir üzvü kimi hesab edən Erkan Özoral Azərbaycanın Qafqazın gündən-günə daha çox parıldayan ulduzu olacağına inanır.*

***Fərizə ƏHMƏDOVA, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan".***

## *Səməd SEYİDOV:*

# AŞ PA-nın qış sessiyası bizim üçün uğurlu oldu

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası bizim üçün uğurlu oldu. Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri tam şəkildə təsdiqlənib. Sessiya müddətində nümayəndə heyətimiz öz işini həmişəki qaydada həyata keçirib. Nümayəndə heyətimizin üzvləri AŞ PA-nın vitse-prezidenti, ən böyük Sosialist qrupunun, eləcə də qurumun komitələrinin vitse-prezidenti vəzifələrinə seçiliblər.

Bu fikirləri AŞ PA-nın vitse-prezidenti, Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində söyləyib.

S.Seyidov qeyd edib ki, qış sessiyası çərçivəsində deputatlarımız müzakirələrdə fəal iştirak edib, çıxışları ilə bizi maraqlandıran məsələlərə mövqelərini bildiriblər. Deputatlarımız Avropa Şurasının baş katibi və Finlandiyanın Prezidentinə bizi maraqlandıran suallarla müraciət ediblər. Onlar cavablarında müsbət mövqe göstəriblər. Azərbaycana qarşı qərəzli mövqeyi ilə tanınan və hər sessiyada ölkəmizin imicini ləkələməyə çalışan Omtziq qurumun baş katibi tərəfindən yerinə oturdulub. Baş katib cavab verib ki, Azərbaycanla bağlı kiçik məsələlər siyasiləşdirilməməli və bundan sui-istifadə olunmamalıdır.

Finlandiyanın Prezidenti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bildirib ki, bu münaqişənin həlli hamını düşündürməlidir. Azərbaycanın problemi bizə yaxşı tanışdır. Biz bu münaqişənin tezliklə sülh yolu ilə, diplomatik vasitələrlə həllində maraqlıyıq və Minsk qrupu çərçivəsində buna istənilən dəstəyi göstərməyə hazırıq. Azərbaycan-Türkiyə münasibətləri, Azərbaycan-Avropa əlaqələri bu sessiyada özünün ən yüksək səviyyədə olduğunu göstərdi. Amma təəssüf ki, bu qurumda ölkəmiz əleyhinə işləyən qüvvələr də var. Onlar yanvar sessiyası çərçivəsində ölkəmizə qarşı düşünülmüş, planlaşdırılmış mənfi tədbirlər nəzərdə tutmuşdular.




Azərbaycan Prezidentinin xarici siyasəti, bizə verdiyi tövsiyələr, ölkəmizdə gedən proseslər bizə kömək etdi, güc verdi. Azərbaycan hökumətinin, Milli Məclisin, nümayəndə heyətimizin birgə fəaliyyəti, beynəlxalq təşkilatlarla əlaqələr belə qüvvələrin məkrli planlarının həyata keçməsinin qarşısını aldı.

Azərbaycan bu sessiya ərzində istədiyi, düşündüyü fəaliyyəti reallaşdırdı. Nümayəndə heyətimizin fəaliyyəti nəticəsində ölkəmizlə bağlı mənfi fikirlərin, ona qarşı mənfi münasibətlərin azaldığını gördük, erməni lobbisinin düşündüyü planların gündəmdən çıxarılması istiqamətində uğura nail olduq. Bu sessiyanı, xüsusilə də nümayəndə heyətimizin fəaliyyətini yüksək qiymətləndirirəm. Birgə fəaliyyət həmişə uğurlara aparır, güc birlikdədir. Əminəm ki, gələn sessiyalarda bu uğurun daha yüksək nəticələrini görəcəyik.

# İlham Əliyevin siyasi alternativsizliyi birmənalı rəydir

## YAP-ın Gənclər Birliyinin hər hansı rayon təşkilatı birləşmiş müxalifətin mitinqindən daha əzəmətli tədbir təşkil edə bilər

*Əvvəli 1-ci səh.*

Bu gün özlərini milli təəssübkeş, demokratiya carçıları kimi qələmə verənlər gənc nəsli çaşdırmağa çalışırlar. Onlar vaxtilə törətdikləri əməllərin unudulduğunu düşünürlər. Amma tarix unudulmur. 1990-cı illərin əvvəllərində AXC-Müsavat iqtidarının nümayəndələrinin parlamentdə, mediada çıxışlarında bir-birinə qarşı ittihamları, yol verilmiş ciddi səhvləri, korrupsiya, rüşvətxorluq, xəyanət və s. barədə açıqlamalarını hər kəs yaxşı xatırlayır. Ümumiyyətlə, cəmiyyət belə məsələləri unutmamalı, gənc nəsil xarici güclərin dəstəyi ilə hakimiyyət iddiasını reallaşdırmaq istəyənlərin keçmişi haqqında həqiqətləri bilməlidir. Bu insanlar normal, sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikirlərini, ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Çünki hələ də 1990-cı illərin qaraguruhçuluq ab-havası ilə yaşayırlar.

Son aksiya yalnız yerli "təşəbbüslərlə" başa gəlməmişdi. Xaricdəki bloqerlər mitinqə çağırış edirdilər və beləliklə, bu, Azərbaycanın klassik küçə-meydan müxalifətinin xaricə sığınan antimilli ünsürlər ilə birlikdə təşkil etdiyi "ortaq tədbir" idi. Ortaya çıxardıqları isə göz önündə idi - 2800 nəfər.

Əminliklə deyə bilərəm ki, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin hər hansı rayon təşkilatı birləşmiş müxalifətin mitinqindən daha əzəmətli tədbir təşkil edə bilər. Bu, dəfələrlə sübut olunub.

Son mitinqdə əvvəlki aksiyalarda yaşanan analoji hal baş verdi. Hər zaman şəxsi ambisiyaları üzündən bir araya gələ bilməyən AXCP sədri Əli Kərimli vaxtilə İsa Qəmbərin etdiyi kimi davranaraq "birləşmiş" müxalifətin birgə ərsəyə gətirdiyi aksiyanı öz adına çıxmaq istədi. Bu davranış isə "düşərgədə" yeni gərginliyin əsasını qoydu və bəzi təşkilatlar artıq AXCP-nin iştirak etdiyi aksiyalara qatılmayacaqlarını bəyan ediblər.

Bu, AXCP sədri Əli Kərimlinin köhnə peşəsi olduğu üçün heç də təəccüblü deyil. AXCP sədri bütün aksiyalarda bu taktikadan yararlanmaqla öz xeyrini güdür. Lakin xalqın gözü tərəzidir və kimin-kim olduğunu yaxşı bilir.

19 yanvar mitinqində daha bir fakt sübutunu tapdı. Hər kəs bir daha əmin oldu ki, AXC-nin şinelindən çıxmış və bu gün də müxalifət postunu zəbt etmiş şəxslər hələ də revanşizm ab-havasındadırlar və dağıdıcılıq, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər. Çünki onların mitinqdəki çıxışları göstərdi ki, cəmiyyətə yeni, faydalı heç nə təklif edə bilmirlər. 25 ildən çoxdur dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar...



Bütün bunlar bir daha təsdiq edir ki, "beşinci kolon"nun üzvləri öz iddialarını reallaşdırmaq üçün Azərbaycanın Suriya, Liviyanın vəziyyətinə düşməsinə belə hazırdırlar. Çünki mitinqdən bir gün sonra, ümumxalq hüzn günündə, Şəhidlər xiyabanında yaratdıqları destruktiv, təfriqəçi olaylar müxalifətin əsl məkrini ortaya qoymuş oldu. Əli Kərimli və onun zombiləşmiş dəstəsi dünyanın diqqəti Azərbaycana yönəldiyi bir gündə, ümumxalq hüzn günündə belə, ölkədə qarışıqlıq yaratmağa çalışdılar. Yəqin ki, havadarlarından aldıqları tapşırıq belə imiş.

Bu cür uğursuz nəticəyə baxmayaraq, müxalifət yenə də mitinq keçirmək istəyir. Amma bu istək hər şeydən əvvəl, ölkədə hay-küy salmağa, sabitliyi pozmağa, xaricdəki ağalarının vasitəsi ilə ölkəmizə qarşı əsassız ittihamlar uydurulmasına şərait yaratmaq məqsədi güdür. Ona görə də müxalifətin bu cür lüzumsuz, sabitliyi pozmağa xidmət edən mitinqlərinin keçirilməsinə icazə verərkən bunlar nəzərə alınmalıdır. Yəni, reallıq onu deməyə əsas verir ki, yanvarın 19-20-si baş verənlər müvafiq dövlət orqanları tərəfindən araşdırılmayınca, dağıdıcı qrupların kütləvi aksiya təşkil etməsi imkanları məhdudlaşdırılmalıdır.

Ehtimal etmək olar ki, Əli Kərimli və onun başıpozuq, marginallaşmış dəstəsi bunu hakimiyyətin qorxması kimi qələmə versin. Sual oluna bilər, hakimiyyət uzun müddət təbliğat aparıb, bütün güclərini səfərbər edib meydana cəmi 3 minə yaxın adam yığa bilən siyasətbazlardan niyə qorxmalı və çəkinməlidir ki?!

Görünür, Prezident İlham Əliyev rüşvət və korrupsiya ilə mübarizəni gücləndirdikcə, sistem xarakterli islahatlarının miqyasını genişləndirdikcə, Azərbaycan idarəetmə fəlsəfəsini dəyişdikcə, özlərini ona opponent hesab edənlər daha da aqressivləşir və mütəşəkkil şəkildə müqavimət göstərməyə çalışırlar. Ermənistanla danışıqların yeni intensiv mərhələyə daxil olması ərəfəsində güclü mövqedən çıxış edən Azərbaycanın daxilində qarşıdurma yaratmağa çalışan bu qrupların məqsədi nədir? Əlbəttə, onlar belə tapşırıq alırlar və can-la-başla onu icra edirlər.

Tam reallıqdır ki, alətə çevrilən buqələmunlar Azərbaycan Prezidentinin son illərdəki uğurlu islahatlarının nəticələri ilə barışa bilmirlər. Sanki düşmən mövqedə dayanıblar. Prezident İlham Əliyevin son 15 ildə Azərbaycana qazandırdığı uğurlar göz önündədir. Hərtərəfli inkişaf, artan iqtisadiyyat və yüksələn beynəlxalq nüfuz Azərbaycanı dünyada etibarlı tərəfdaşa çevirib.

Bu gün dünya Azərbaycanı cənab İlham Əliyevə görə tanıyır. Hər il Davosda ənənəvi olaraq təşkil olunan Dünya İqtisadi Forumuna dəvət olunan dövlət başçısı Azərbaycanın inkişaf modelini təqdim edir və böyük dəstək qazanır. Dövlət başçısı kimi ilk dəfə 2007-ci ilin yanvarında Davos İqtisadi Forumunda iştirak edən Prezident İlham Əliyev 2019-cu ildə 13-cü dəfə bu mötəbər toplantıda oldu. Əlbəttə ki, cənab Prezidentin Davosda dövlət və hökumət başçıları, tanınmış beynəlxalq şirkət rəhbərləri ilə keçirdiyi görüşlər hər zaman ölkəmizə siyasi və iqtisadi dvidendlər qazandırıb.

Bütün bu nailiyyətlər Azərbaycanın dünya birliyindəki mövqeyini gücləndirdiyi təqdirdə müxalifət daha da aqressivləşir. Səbəb isə bəllidir. Bədniyyətli qüvvələr yaxşı anlayırlar ki, Azərbaycana tarixinin ən qüdrətli dövrünü yaşadan cənab İlham Əliyev bu ölkəni daha böyük zəfərlərə doğru aparır. Onun ən böyük dəstəkçisi isə xalqdır.

***Amil CAVADOV, YAP Gənclər Birliyinin Şura üzvü***

Deməsək olmur

# Qəzetsiz qəzet köşkləri

## Yenilənən köşklər əvvəlkindən fərqli olaraq indi daha çox “mini-bazar” kimi fəaliyyət göstərir

Bəyənməyib axırına çıxdığımız (və sonralar bəzən bunun təəssüfünü çəkdiyimiz) sovet hökumətinin ən çox yaddaqalan “atribut”larından birinin nə olduğunu xatırlayırsınızmı? Bəli, növbələr. Xüsusən ötən əsrin 70-ci illərinin sonlarından başlayan bu növbələr SSRİ adlı sözün hər mənasında nəhəng bir dövlətin süqutunadək davam etmişdir. Həm də təkcə davam etməmişdir, eyni zamanda o süquta rəvac verən səbəblərdən biri olmuşdur. Nələrə növbə düzülməzdi? Özü də yalnız düzülsəydi nə vardı ki? Dərd burasında idi ki, adi sabun, kibrit, yağ, şəkər, kolbasa üçün saatlarla, mənzil, avtomobil, mebeldən ötrü illərlə davam edən həmin növbələrə kiminin səbri, kiminin də... ömrü yetməzdi.




Birinci mikrorayon







Metronun “Əcəmi” stansiyası ərazisindəki köşklər

### Qəzet üçün nəzərdə tutulmuş rəflər boşdur




Metronun “Azadlıq prospekti” stansiyası




Metronun “Elmlər Akademiyası” stansiyası




Şərifzadə küçəsi, ATS-lə üzbəüz

### Bu köşklərdə də “Azərbaycan” qəzeti satılmır







Bütün köşklərdə “sarı mətbuat” nümunələri reklam olunur

Amma bu növbələr düzənində ən azından ikisi də var idi ki, onların mövcudluğu ölkənin, dövlətin və nəhayət, xalqın xəcaləti yox, başucalığı, səviyyəsizliyi deyil, intellekt göstəricisi, maddi kasıblığından daha çox mənəvi zənginliyi idi. Bunlardan biri kitab mağazalarının, digəri isə qəzet köşklərinin qarşısında yaranan növbələr idi. Bəli, içi biz qarışıq sovet xalqının nəyi olmasa da, oxumağa, öyrənməyə, savad almağa həvəsi vardı. Təsadüfi deyildi ki, o vaxt biz dünyada ən çox kitab oxuyan xalq kimi tanınırdıq və bununla fəxr edirdik.

Kim nə deyir-desin, sovet xalqının intellektinin bu səviyyədə yüksək olması nə kommunist ideologiyasının saxta təqdimatı idi, nə də həmin intellektin dövlətin ideoloji təbliğatına yönəldilməsinin nəticəsi. Bu, təkzib edilməsi mümkün olmayan həqiqət idi və indinin özündə keçmiş SSRİ-nin subyektləri olmuş bugünkü müstəqil dövlətlərin hamısı bütün sahələr üzrə məhz həmin intellekt üzərində və sayəsində ayaqda dura bilir.

Lakin çox təəssüf ki, belə bir bünövrəsi olan səviyyənin davamı gəlmir. Hətta bu, zamanın üstünə atılsa da, İKT-nin (informasiya-telekommunikasiya texnologiyaları) inkişafı ilə əlaqələndirilsə də, kitabı və qəzeti smartfonların, kitabxananı gecə klubları və barların əvəz etmələrinə bəraət qazandırmaq mümkün deyil. Yaşlı və orta nəslin yadında olar - əvvəllər metroda hərənin əlində ya qəzet-jurnal, ya da kitab olardı. Heç kim mənzil başına getmək üçün sərf etdiyi vaxtı boşa vermək istəməzdi, mütləq nə isə oxuyub öyrənməli idi.

İndi də əksəriyyətin əli boş deyil, hərənin əlində bir smartfon var. Buna sözümüz yox, çünki müasir dövrün kitabı da odur, qəzeti də, yəni onun vasitəsilə həm də istənilən kitabı, yaxud qəzeti oxumaq mümkündür. Bəli, mümkündür, amma çox hallarda bunu etmirlər axı... Bizimkilərin əksəriyyəti üçün smartfon dünyaya açılan pəncərə yox, boş-boşuna vaxt öldürmək, əylənmək, şəkil çəkmək, mənasız yazışmalar üçün vasitədir. Yəni İKT-nin yaratdığı bu kiçik intellekt dünyası bizimkilərin çoxunun əlində əsas təyinatı dəyişdirilərək lazımsız əşyaya çevrilmişdir. İnanmırsınızsa (hərçənd inandığınıza şübhə etmirik), ictimai nəqliyyatda, küçədə, parkda, hətta yolu keçəndə smartfonlarından ayrılmayan gənclərin nə ilə məşğul olmalarına gözucu nəzər salın. Nəzər salın və görün ki, gənclərimiz əllərindəki smartfonlarla hara və nəyin ardınca gedirlər. Sizi inandırırıq, onların əksəriyyəti hara və nəyin ardınca desəniz gedirlər, təkcə elmdən və savaddan savayı.

Amma gəlin belə bir vəziyyətin yaranmasında öz məsuliyyətimizi, günahımızı da danmayaq. Əgər bu gün bizim qəzet köşklərində qəzetdən çox (bəlkə də qəzetdən savayı) siqaretdən və saqqızdan tutmuş hətta spirtli içkilərəcən satılırsa, əksər kitab mağazalarının çoxunun özəlləşdiriləndən sonra təyinatı dəyişdirilibsə, kitabxanalarımızın isə təkcə adları qalıbsa, gənclərimizi qınamağa haqqımız varmı? Yəqin ki, yaşı 40-dan yuxarı olanların yaddaşlarında qalar: vaxtı ilə bütün metro stansiyalarının girişində, əksər sənaye və ərzaq mağazalarında qəzet, jurnal, kitablar da satılırdı. Qəzet-jurnalların son nömrələrini, çıxan yeni kitabları çoxumuz məhz belə yerlərdən alırdıq. İndi isə nəinki supermarketlərdə, ticarət mərkəzlərində, hətta birbaşa fəaliyyət təyinatı çap materialları satmaq olan köşklərdən belə təzə qəzet, yeni kitab almaq mümkün deyil. “Çünki”si hamıya məlumdur, “nədən”ini hamı bilir. Amma nə fayda, içi biz daxil elə həmin hamı qurbanlıq qoç kimi zəmanəni təqsirkar sayır. Zəmanənin də dili yoxdur ki, bu haqsızlığa cavab verib özünü təmizə çıxarsın.

Həqiqətən, bu gün, məsələn, “Azərbaycan” qəzetinin oxucusu onu köşkdən ala bilmirsə, yaxud yeni nəşrlərlə maraqlanan başqası kitab mağazasına baş çəkmək üçün şəhəri ələk-vələk etməli olursa, buna zəmanə neyləsin? Hər gün redaksiyamıza “Azərbaycan” qəzetini köşkdən tapmadığı üçün onlarla oxucu zəng edir. Xüsusən Prezidentin sərəncam və fərmanlarından, təsdiqlədiyi qanun və digər rəsmi sənədlərdən sonra belə zənglərin sayı daha da artır. Ancaq redaksiyamızın siyasəti açıq satışa satılan qədər qəzet göndərməkdir. Yayım təşkilatları isə günü buğun də bu işdə bizimlə, necə deyərlər, “aldım, aldatdım” oynayırlar. Yəni satışa neçə nüsxə göndəririksə, 80-90 faizini “satılmadığı üçün” geri qaytarırlar. Bu səbəbdən satışa minimal sayda qəzet verməyə məcbur oluruq. Redaksiyamıza daxil olan zənglər, apardığımız araşdırmalar isə göstərir ki, bu minimal say tələbatdan azdır, özü də dəfələrlə!

İddiamız təkcə quru söz olmasın deyə konkret faktlar da çəkə bilərik. Məsələn, Yeni Yasamal yaşayış massivində yerləşən “Bizim market”in yanındakı “Kiosk Press”ə bir dənə də olsun “Azərbaycan” qəzeti verilmir. Deyək ki, bura şəhərin mərkəzi sayılmır, sadəcə, bir yaşayış ərazisidir. Bəs Hüseyn Cavid prospektində - Texniki Universitet səmtindəki, eləcə də “Akademiya bağı” və “Axundov bağı” deyilən ərazilərdəki köşklərə rəsmi dövlət qəzetinin verilməməsinə nə ad qoyaq?! Ad qoymaqda çətinlik çəkdiyimiz həm də metronun “Elmlər Akademiyası” stansiyasının girişi ilə üzbəüz köşkün “Azərbaycan”ı cəmi bir nüsxə alması və gələn kimi qəzetin satılması, hətta belə vəziyyətdə də köşkə əlavə nüsxələrin verilməməsidir. Belə hal “İçərişəhər” metrostansiyasının qarşısındakı köşkdə də mövcuddur.

Bütün bunlardan (və sözsüz ki, daha neçə-neçə analoji vəziyyətdən) sonra biz deyil, sizsiniz - bir neçə nazirliyin, komitənin, universitetlərin, eləcə də Bakı ŞİH-in yerləşdiyi ərazilərdəki köşklərə rəsmi qəzetin verilməməsinin (ən yaxşı halda bir nüsxə verilməsini) onun “satılmaması” ilə izah olunması nə qədər həqiqətə uyğundur və ümumiyyətlə, uyğundurmu? Axı, köşklərdə işləyənlərin özləri etiraf edirlər ki, gün ərzində “Azərbaycan” qəzetini istəyənlərin sayı onlarladır. Amma onlar etiraf etməsəydilər belə, bilirik ki, nazirlik, komitə və icra orqanları əməkdaşlarına, universitet müəllimlərinə, lap elə tələbələrə rəsmi mətbu orqan hər gün lazım olur. Amma nə edək ki, bizdə qəzet yayımı məsələsində hələ ki tələb-təklif şərti işləmir.

Bu məsələnin üstündə şəxsi mənafeyimiz üzündən dayanmırıq. İnanmırıq ki, başqa ciddi qəzetlərin vəziyyəti bu sarıdan “Azərbaycan”dan yaxşı ola. Sözümüzün canı odur ki, sadaladığımız səbəblər üzündən bu gün ölkəmizdə hətta 10 min tirajla çıxan bir qəzet belə yoxdur! Halbuki ittifaq subyekti kimi SSRİ-nin tərkibində olarkən Azərbaycanda 400-600 min tirajla çıxan qəzetlər vardı. Bunun bir səbəbi qəzetlərin qiymətlərinin (deməli, həm də illik abunəsinin) ucuzluğu idisə, digər səbəbi respublikada abunə və satış işinin yüksək səviyyədə təşkili idi. Biz hələ ozamankı qəzet köşklərinin ilk növbədə yalnız öz işləri ilə məşğul olmalarını demirik. Həmin illər heç kimin ağlına gəlməzdi ki, qəzet köşkünü “mini-ticarət mərkəzi” kimi işlətsin!

Kimsə deyə bilər ki, maraqlı, oxunaqlı qəzet buraxın, alınsın, yaxud abunə yazılsın. İlk baxışda haqlı iraddır. Amma bu zaman bir vacib məqam unudulur: qəzeti yalnız alıb oxuyandan, uzaqbaşı nəzərdən keçirəndən sonra onun oxucunun tələbatına cavab verib-verməməsi barədə qərar vermək olar. Biz hələ tələbatın, yeni oxucu marağının müxtəlifliyinə toxunmuruq, baxmayaraq ki, bu da vacib məsələdir. Üstəlik, KİV-in, o cümlədən qəzetin bir vəzifəsinin də oxucunun marağını formalaşdırmaqdan ibarət olduğu unudulmamalıdır.

O ki qaldı müasir oxucunun internet üzərindən istədiyi vaxt istədiyi nəşrin saytına daxil olub oxuya bilməsinin qəzet və jurnalların tirajını aşağı salması arqumentinə, bunu da danmaq fikrindən uzağıq, amma bir sualımıza obyektiv cavab almaq şərti ilə: necə olur ki, Qazaxıstanda, məsələn, bizim qəzetlə təxminən eyni statusda olan “Egemen Kazaxstan” 200 mindən çox, Belarusda “Belarus seqodnya” 400 min tirajla çıxır, “Azərbaycan”ın gündəlik sayı isə heç 8,5 minə çatmır?! Biz hələ məlum səbəblərdən Rusiya, Türkiyə, lap elə Avropa ölkələrində nəşr olunan analoji statuslu qəzetlərin tirajlarını demirik. Bu fərqləri əhalinin, yəni potensial oxucuların sayı ilə izah etmək istəyirsinizsə, bu arqument də bizim qəzetlərin tirajlarına haqq qazandırmaq imkanında deyil. Belarusda əhalinin sayı Azərbaycandakından nəinki 50 dəfə (“Belarus seqodnya” qəzetinin tirajı “Azərbaycan”dan təxminən bu qədər çoxdur) artıq deyil, hətta aşağı-yuxarı eynidir. Adlarını çəkdiyimiz və çəkmədiyimiz ölkələrlə analoji müqayisə də eyni nəticəni verəcəyindən vaxt almaq istəmirik. Amma əvəzində eyni şineldən çıxmış ölkələrlə (ən azından Qazaxıstan və Belarusla) bu müqayisədə bizim yazılı KİV-in mövcud vəziyyətinin səbəblərini bilmək istəyirik. Gəlin etiraf edək ki, həmin səbəblər sırasına nə İKT-nin inkişafını aid etmək olar, nə də media sahəsində elektron KİV-in dominant rolunu, hətta onların səbəb kimi üstlərindən çarpaz xətt çəkmək mümkün olmasa belə. Sözümüzün canı odur ki, müqayisə subyekti kimi adlarını çəkdiyimiz ölkələr İKT-nin və elektron KİV-in inkişafına görə bizdən geri qalmasalar da, qəzetlərinin tirajlarına görə, qeyd etdiyimiz kimi, on dəfələrlə öndədirlər, yəni səbəblər başqadır.

Bax bizim və həmkarlarımızın da məqsədi bu başqa səbəbləri tapıb aradan qaldırmaqdır. Bilirsiniz, 10 milyon nəfər əhalisi (deməli, təxminən ən azı 5 milyon nəfər potensial oxucusu) olan ölkədə rəsmi qəzetin 8 min tirajla çıxması nə deməkdir? Bu o deməkdir ki, hər 1000 nəfərə heç bir qəzet də düşmür! Yəni ən azı 999 nəfər hər gün yalan və şayiələrdən uzaq obyektiv xəbərlərdən, ölkədə qəbul olunan qanunlardan, onlara edilən dəyişikliklərdən, Prezidentin, dövlətin və hökumətin fəailiyyətlərindən məlumatsız qalır! Hətta təxminən eyni məzmunlu digər qəzetlərin tirajlarını üst-üstə toplasaq belə, həmin məlumatsız əhalinin sayı az dəyişəcək. Bununsa bütün ideoloji cəbhələrdə mübarizənin qızışdığı indiki vaxtda nə demək olduğunu izah etməyə ehtiyac yoxdur! Həmçinin onu da izah etməyə ehtiyac yoxdur ki, bu gün sosial şəbəkələrdəki tərbiyəsiz müxalifətçiliyin, ən ağlasığmaz şayiənin qısa vaxtda ölkəni başına götürməsinin də əsas səbəblərindən biri məhz doğru sözün ictimaiyyətə lazımi səviyyədə çatdırılmamasıdır! Görün hələ neçə il əvvəl Azərbaycan mətbuatının atası Həsən bəy Zərdabi nə yazmışdır: “Qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin... Heç olmasa ki, doğru söz yerdə qalmasın”. Sanki rəhmətlik bu qiymətli sözləri günümüz üçün qələmə almışdır.

Bütün bunlar problemin yalnız ideoloji tərəfidir. Amma onun maddi tərəfinin də fəsadları var. Nəzərə alsaq ki, qəzetlərin gəlirləri abunə, satış və reklamdan asılı olur, onda bir neçə min tirajla çıxan nəşrlərin maddi vəziyyətlərini təsəvvür etmək çətin deyil. Bu azmış kimi, bəzən yayım qurumları satış və abunə haqlarını qəzetlərə ya vaxtında, ya da ümumiyyətlə, köçürmürlər. Yeri gəlmişkən, təkcə “Azərbaycan” qəzetinin bu hesaba 210 min manatdan çox alacağı var. Bəlkə də artıq yoxdur, çünki ümid qalmayıb, necə deyərlər, ümidin öldüyü son da yetişib. O ümidin ki, bizim üçün heç də həmişə “yeməkdən yaxşı” olmur. 10 ildən çox əməkhaqları və qonorarları artırılmayan əməkdaşlarımızın sosial-məişət ehtiyaclarını “ümid”lə ödəmək mümkün deyil, özü də indiki zamanda...

Və indiki zamanda Azərbaycan həm də azsaylı ölkələrdəndir ki, KİV-in dostu və himayədarı birbaşa dövlət başçısının özüdür! Həqiqətən, bu gün dünyada elə ölkə yoxdur ki, orada KİV-ə maddi dövlət dəstəyi vermək üçün xüsusi fond olsun, onlarla qəzet və jurnala mütəmadi kömək edilsin, jurnalistlər bu sayda orden, medal, fəxri ad, pulsuz mənzil alsınlar. Tam səmimi deyirik: biz jurnalistlər həmişə dövlətin əlini kürəyimizdə hiss edirik! Ən kiçik nəşrin belə elə məsələsi, elə problemi olmur ki, həll edilməmiş qalsın.

Gəlin birlikdə qəzet və jurnallarımızın tiraj, deməli, həm də maddi-texniki problemini həll etmək üçün təhlillər aparaq, yollar axtaraq, təcrübələri öyrənək və nəhayət, tədbirlər görək. Başa düşürük ki, indi heç kimə zorla qəzet oxutdurmaq, yaxud aldırmaq, abunə yazdırmaq mümkün deyil! Onu da anlayırıq ki, biz də öz işimizə, buraxdığımız qəzetə, jurnala yenidən - müasir dövrün tələbləri çərçivəsində baxmalıyıq. Amma hətta bu halda da XIX əsrdə milli qəzet nəşr etdirmiş Həsən bəy Zərdabinin vətənində XXI əsrdə qəzetlərin bu qədər az tirajla çıxması və yayılması normal sayılmır! Deməli, nə vaxtsa, haradasa, nəyi isə nəzərdən qaçırmışıq. Bax onu tapıb aradan qaldırmaq lazımdır. Bunu bacarsaq, biz jurnalistlərdən də öncə qazanan dövlətimiz və xalqımız olacaq.

***Raqif MƏMMƏDOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Azərbaycan “FITUR-2019” Beynəlxalq turizm sərgisində uğurla təmsil olunur

Madriddə növbəti “FITUR” beynəlxalq turizm sərgisi öz işinə başlayıb. Artıq 39 ildir ki, təşkil olunan bu mötəbər beynəlxalq turizm sərgisi adıçəkilən sektorda fəaliyyət göstərən mütəxəssislər üçün qlobal görüşmə nöqtəsi hesab olunur və İbero-Amerika bazarlarına çıxış baxımından əhəmiyyətli rola malikdir.

Bu il keçirilən “FITUR-2019” beynəlxalq turizm sərgisi zamanı iştirakçıların sayında yeni rekord müşahidə edilib: 165 ölkə və regiondan 10 min 487 şirkət tədbirdə iştirak etmək üçün qeydiyyatdan keçib.

“FITUR” beynəlxalq turizm sərgisində ölkəmiz Azərbaycan Dövlət Turizm Agentliyinin təşkilatçılığı və ölkəmizin İspaniya Krallığındakı səfirliyinin dəstəyi ilə uğurla təmsil olunur. Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın yeni turizm brendi (“Bir daha bax” (“Take another look”) şüarı və brendin mahiyyətini özündə tərənnüm etdirən loqo) altında stendlərimizdə ölkəmizin turizm potensialı, sözügedən sektorun inkişafı, müasir texnologiyaların tətbiqi, habelə mövcud turizm infrastrukturu və bu sahədə təklif olunan xidmətlər barədə videoçarxlar, məlumat kitabçaları, broşürlər, nəfis tərtibata malik təbliğat materialları sərgi iştirakçılarına təqdim olunur.

Milli stenddə həmçinin böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə səfirlik tərəfindən çap etdirilmiş, İspaniyada istifadə edilən xüsusi poçt markaları, ispan dilində Nəsiminin yaradıcılığını əks etdirən məlumat kitabçaları, həmçinin Azərbaycanın qədim xalçaçılıq ənənələrini ehtiva edən təbliğat materialları nümayiş etdirilir. Tədbir zamanı Azərbaycan pavilyonu sərgi iştirakçılarının böyük marağına səbəb olub.

AZƏRTAC-a müsahibəsində Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib: “FİTUR-2019” sərgisində Azərbaycan ilk dəfə olaraq “Bir daha bax” turizm brendi ilə təqdim olunur. Bu brend Latın Amerikasının zəngin tarixə, mədəniyyətə, qonaqpərvərliyi özündə tərənnüm etdirən milli mətbəxə malik ölkəmiz barədə təəssüratlarını yeniləyəcək. Bu gün sərginin açılış mərasimi çərçivəsində mənim İspaniya Kralı VI Felipe ilə görüşüm oldu. Görüşdə kral turizm sənayesinin möhtəşəm tədbirində ispan turistləri üçün böyük əhəmiyyət kəsb edən Azərbaycanın iştirak etməsindən məmnun olduğunu bildirdi. Kral sərginin işində iştiraka görə hamıya uğurlar arzuladı.

Sərgidə iştirak edən Ermənistan tərəfi növbəti dəfə təxribatlara əl ataraq, erməni şirkətlərinə məxsus stendlərdə işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma qurumun təbliğinə yönəlmiş müxtəlif məlumat və xəritələri üstüörtülü şəkildə nümayiş etdirməyə cəhd etmişdir. Dövlət Turizm Agentliyi və ölkəmizin İspaniya Krallığındakı səfirliyi tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilərək, “FITUR” beynəlxalq turizm sərgisinin əsas təşkilatçısı kimi çıxış edən “IFEMA”nın İcraiyyə Komitəsinin prezidenti Klemente Qonsales Soler ilə dərhal görüş keçirilib. Görüşdə Ermənistan tərəfinin təxribatının yolverilməzliyi, “FITUR” beynəlxalq turizm sərgisi zamanı bu cür əməllərə əl atılmasının “FITUR”un əsas məqsədi olan əməkdaşlıq və turizmin davamlı inkişafına mənfi təsir göstərdiyi, eyni zamanda, Ermənistanın növbəti dəfə beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə məhəl qoymadan həyata keçirdiyi təxribatın “FITUR”un “Bələdçi kitabçası”na birbaşa zidd olduğu diqqətə çatdırılıb. Deyilənlərin sübutu kimi Ermənistan şirkətlərinin stendlərindən əldə olunmuş, üstüörtülü şəkildə paylanan broşürlər əyani şəkildə K.Qonsales Solerə təqdim edilib.

“IFEMA”nın İcraiyyə Komitəsinin prezidenti K.Qonsales beynəlxalq sərgidə belə bir xoşagəlməz faktın baş verməsindən təəssüfləndiyini bildirib, bu cür təxribatların “FITUR” beynəlxalq turizm sərgisinin işinə kölgə salmaq niyyəti daşıdığını qeyd edərək, məsələ ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görüləcəyini, Ermənistan şirkətlərinə bu cür təxribatyönümlü broşürlərin paylanmasına görə ciddi xəbərdarlıq edilərək, onların dərhal stendlərdən yığışdırılmasına dair göstəriş verib.

Keçirilən görüşün və görülən digər təxirəsalınmaz tədbirlərin nəticəsi olaraq Ermənistan şirkətləri tərəfindən təxribatyönümlü materialların yayılmasının qarşısı alınıb, onlar stendlərdən yığışdırılıb, bu halın bir daha təkrar olunacağı təqdirdə həmin stendlərin bağlanılacağına dair “IFEMA”nın İcraiyyə Komitəsi tərəfindən Ermənistan şirkətlərinə şiddətli xəbərdarlıq edilib.

“FITUR-2019” beynəlxalq turizm sərgisi öz işini yanvarın 27-dək davam etdirəcək.



# 58 beynəlxalq turnirə evsahibliyi, 236 yarışda iştirak, 263 qızıl medal

## Azərbaycan idmançıları ötən ili möhtəşəm nailiyyətlərlə başa vurdular

*Əvvəli 1-ci səh.*

### Gimnastika üçün daha bir uğurlu il

Ötən il gimnastikada da bir çox uğurlu nəticələr əldə edilib. Gimnastika növləri üzrə yığma komandalarımız beynəlxalq yarışlarda 26-sı qızıl, 15-i gümüş və 44-ü bürünc olmaqla 85 medal qazanıb növbəti dəfə güclü olduqlarını nümayiş etdiriblər.

2018-ci ildə Bakıda gimnastikanın 3 növü üzrə dünya kuboku təşkil olundu. Əvvəlcə 25 ölkədən 100-dən çox gimnastın iştirakı ilə idman gimnastikası üzrə dünya kuboku baş tutdu. Növbəti aylarda təşkil olunmuş bədii gimnastika üzrə dünya kubokunda 26 ölkə, ilk dəfə təşkil olunan akrobatika gimnastikası üzrə dünya kubokunda isə 7 ölkə iştirak etdi.

Keçən il Milli Gimnastika Arenası dünya kubokları ilə yanaşı, bədii gimnastika üzrə "AGF Junior Trophy", "GymBala" beynəlxalq turnirlərinə, həmçinin Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən tanınan aerobika gimnastikası üzrə açıq Azərbaycan çempionatına evsahibliyi etdi.

Bakıda ilk dəfə keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə Avropa çempionatı 2018-ci ilin ən yaddaqalan yarışlarından oldu. 25 ölkə, 400-dən çox gimnastın qatıldığı çempionatda Veronika Zemlyanaya-Svetlana Makştaryova sinxron cütlüyü gümüş medala sahib oldu. Mixail Malkin isə fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.

İlin ən yaddaqalan yarışlarından biri İspaniyada keçirildi. Qvadalaxara şəhərində bədii gimnastika üzrə qitə birinciliyində gənc gimnastımız Arzu Cəlilova, qrup hərəkətləri komandalarının mübarizəsində isə beşliyimiz - Aliyə Paşayeva, Siyana Vasileva, Zeynəb Hümmətova, Diana Əhmədbəyli və Ayşən Bayramova bürünc medala sahib oldular.

Gimnastlarımız 1-ci "European Gym for Life Challenge" turnirində də çıxış edərək 37 komanda arasında ən yaxşılardan biri kimi qızıl medala layiq görüldülər.

### Karateçilər medal estafetini davam etdirdilər

2018-ci ildə karateçilərimiz də uğurlu çıxışları ilə yadda qaldılar. Rəsmi beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, eləcə də dünya kuboku, premyer liqa, A seriyası və yeniyetmələr liqası kimi mötəbər turnirlərdə 29-u qızıl, 38-i gümüş və 47-si bürünc olmaqla 132 medal qazanıldı.











Soçidə keçirilən Avropa çempionatında yeniyetmə və gənclərin rekord nəticə göstərməsi, İrina Zaretskanın ilk dəfə qadınlar arasında dünya çempionu olması, Rafael Ağayevin öz medal rekordunu yeniləməsi, Sahib Əhədovun para-karate dünya çempionatında ikinci yeri tutması və digər nəticələrə görə karateçilərimizin dünya reytinqində daha üstün mövqelərə yüksəlməsini keçən ilin əhəmiyyətli idman hadisələrindən biri kimi qiymətləndirmək olar.

### Güləşdə növbəti dünya çempionluğu

Güləşçilərimiz 2018-ci ildə beynəlxalq turnirlərdə 285 medal (72 qızıl, 84 gümüş, 129 bürünc) qazandılar. Qitə və dünya çempionatlarında, eləcə də Yeniyetmələrin Olimpiya Oyunlarında 89 medal əldə edildi. Ötən il sərbəst güləşçilər 157 dəfə, yunan-Roma güləşçiləri 93 dəfə, qadınlar isə 35 dəfə fəxri kürsüyə qalxdılar.

Böyüklərin Avropa çempionatında qazanılmış 18 medal Azərbaycan güləşinin tarixində növbəti rekord oldu. Dünya çempionatında əldə olunmuş 5 medal daha çox yunan-Roma güləşçilərini sevindirdi. Çünki komanda hesabında 4-cü yeri tutan "klassiklər" dünya kubokuna qatılmaq hüququ qazandılar.

Macarıstanın paytaxtı Budapeştdə təşkil olunmuş dünya çempionatında yunan-Roma güləşçilərimiz inamla çıxış etdilər. Güləşçimiz Eldəniz Əzizli dünya çempionu tituluna sahib oldu. O, ilk mərhələdə macarıstanlı rəqibini cəmi bir dəqiqədə məğlub etdi. Həmyerlimiz çinli rəqibini də ilk hissədə mübarizədən kənarlaşdırdı. Uğurlu çıxışını davam etdirən Eldəniz yapon güləşçini də vaxtından əvvəl üstələyərək adını yarımfinala yazdırdı. O, yarımfinalda Gürcüstan pəhləvanını məğlub etdi. Güləşçimiz final görüşündə Qırğızıstan təmsilçisinə qalib gələrək dünya çempionu adını qazandı. Bu, pəhləvanımızın ilk dünya çempionluğudur. Digər güləşçimiz Rəsul Çunayev isə bürünc medalla kifayətləndi. Bununla yığmamız dünya çempionatını komanda hesabında 4-cü yerdə başa vurdu.

### Dünya cüdosunun nəbzi Bakıda vurdu

Başa çatmış ili cüdo üçün də uğurlu hesab etmək olar. Cüdoçularımız 39 beynəlxalq turnirdə iştirak edib 177 medal qazandılar. Medallardan 48-i qızıl, 46-sı gümüş, 83-ü bürüncdür. 124 ölkədən 755 idmançının mübarizə apardığı dünya çempionatının Bakıda yüksək səviyyədə keçirilməsi üçün yaradılmış nümunəvi şərait cüdoçuların gücünü nümayiş etdirməsinə imkan verdi. Bir sözlə, ölkəmiz təşkilatçılıq bacarığı ilə dünya çempionatının Azərbaycan standartını müəyyənləşdirdi.

Bu il isə ölkəmiz daha bir neçə mötəbər turnirə evsahibliyi edəcək. Bakı Avropa Gənclər Olimpiya Festivalı keçirəcək, UEFA Avropa Liqasının final matçını qəbul edəcək.

Ötən il dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın idman uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir: "Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Bizdə əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcək".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***







# Sağlıq olsun

## Əl-ayağı buz kimi olanlara XƏBƏRDARLIQ: *sizdə bu xəstəlik ola bilər*

**Həkim məsləhəti**

**Elə insanlar var ki, temperatur isti olsa belə, əl və ayaq nahiyələri daim buz kimi soyuq olur. Mütəxəssislər isə bu kimi halların bəzi xəstəliklərin göstəricisi ola biləcəyini deyirlər.**

Terapevt Xumar Novruzova əl və ayağın soyuq olmasına səbəb olan həmin xəstəlikləri aşağıdakı kimi sıralayıb.



### Qalxanvarı vəzin funksiyasının zəifləməsi

Qalxanvarı vəz orqanizmin termostatıdır desək, yanılmarıq. Bu orqanın funksiyası zəiflədikdə orqanizmdə bütövlükdə mübadilə pozğunluğu baş verdiyi üçün piylənmə, halsızlıq, qəbizlik və üşümə kimi əlamətlərə rast gəlinir.

### Anemiya

Qanda hər hansı səbəbdən yaranan dəmir çatışmazlığı nəticəsində oksigenlə təchizat pozulur və baş ağrıları, ümumi zəiflik, başgicəllənmə, təngnəfəslik kimi əlamətlərlə birgə bədən üzvlərinin soyuması baş verir.

### B12 vitamini çatışmazlığı

Bu vitamin ən çox ət, toyuq, yumurta və süd məhsullarında olur, qanda hemoqlobinin miqdarı bununla bağlıdır. B12 vitamini çatışmazlığına vegetarianlarda, 50 yaşdan yuxarı şəxslərdə, Kron xəstəliyi olanlarda rast gəlinir. Bu vitaminə olan tələbatı ödəməklə problemləri həll etmək olur.

### Qan təzyiqinin aşağı olması

Bu zaman bədənin qanla təchizatı zəifləyir. Belə ki, qan daxili orqanları təmin etmək üçün səfərbər olur. Bunun bir çox səbəbləri var: qanaxma, susuzlaşma, bəzi dərman preparatlarının qəbulu, endokrin xəstəliklər və s. Əgər siz özünüzdə ətrafların soyumasından başqa, başgicəllənmə, ürəkbulanma, ümumi halsızlıq hiss edirsinizsə, mütləq həkiminizlə məsləhətləşin.

### Stress və həyəcan

Xroniki stress faktoru qanda adrenalinin miqdarını artırır və nəticədə qan damarlarının spazmı baş verdiyi üçün əl-ayaqlar soyuyur.

### Dərman preparatları

Bəzi dərmanların. məsələn, beta-blokerlər, miqren əleyhinə vasitələrin və s. qəbulu damarları, xüsusən də, arteriyaları daraltmaqla əllərin soyumasına gətirib çıxarır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bilirik?

- Çox yemək eşitmə qabiliyyətini zəiflədir
- Əgər nəyi isə xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. Bu, beyin aktivliyinin artmasına və hafizənizi yaxşılaşdırmağa kömək edir
- Spirtli içkini azaldan, ya da tərgidən insanların bədəninin şirniyə tələbatı artdığından tez bir zamanda kökələ bilərlər
- Əsnəyəndə ürək döyüntünüz yüzün 30 nisbətində artır
- Sevdiyiniz insana baxanda göz bəbəyiniz yüzün 45 nisbətində böyüyür
- Yaddaşı pozulan insana musiqi dinlətmək məsləhətdir, çünki beyin mahnıların içində bir neçə xatirəsini həkk edir
- Səhərlər alma yemək yuxunuzu yaxşı qaçıra bilər, nəinki qəhvə
- Yatmazdan əvvəl bir stəkan su içmək infarkt və beyin qanamasının qarşısını ala bilər
- Stresdən ağlayaraq xilas ola bilərsiniz. Ağlamaq insanı rahatlatmaqla yanaşı, xoşbəxtlik hormonunun ifrazını təmin edərək stresi yox edir
- Bir saat boyunca qulaqcıqla nə isə dinləmək qulaqlardakı bakteriya sayını 700 faiz artırır



**Şəfalı bitkilər**

## Ürəyin ən gözəl dərmanı

**Nar insan üçün ən xeyirli meyvələrdən biridir və vitamin (A, C, B, P, E) və mikroelementlərlə (kalium, kalsium, yod, mis, dəmir və s.) olduqca zəngindir.**



Nar insanın ürək-damar, mədə-bağırsaq, immun və s. sistemlərinə çox müsbət təsir edir, qanda hemoqlobinin səviyyəsini artırır, qızdırmanı, yorğunluğu aradan qaldırır, bədənə enerji verir, ürəyi, mədəni və diş ətini qüvvətləndirir. Mədə iltihabı və ağız yarası üçün faydalıdır, orqanizmi xərçəng xəstəliyindən qoruyur. Nar təzyiqi aşağı salır, damar sərtliyinin qarşısını alır. Bu xüsusiyyətlərinə görə nar ürək-damar xəstəliklərinə qarşı ən yaxşı qoruyucu vasitə hesab olunur. Nar dəri üçün də faydalıdır.

Narın qabığından çay dəmləyib içilərsə, ishalı kəsir, bağırsaq qurdlarını tökür, dənələrini örtən pərdə isə həzmi asanlaşdırır.

Hər gün nar suyu içmək insanın bel nahiyəsindəki yağların əriməsinə səbəb olur. Şirin nar mədənin fəaliyyətini gücləndirir, turş nar isə mədədə olan yanma hissini aradan qaldırır. Nar həm boğaza, həm də ağciyərə faydalıdır, öskürəyi kəsmək qabiliyyətinə malikdir.



**Türkəçarə**

## Qripə qarşı təbii reseptlər

Əzvay

Əzvay (Aloe vera) bitkisi immun sistemini gücləndirir, virusla mübarizə edir, qripin simptomlarını yüngülləşdirir. Əzvay şirəsini eyni miqdarda balla qarışdırıb gündə 2-3 dəfə 1 xörək qaşığı olmaqla qəbul edin.

Sarımsaq

Güclü virus və mikrob əleyhinə təsirə malik olan sarımsaq qrip və soyuqdəymə zamanı ən effektli vasitələrdəndir. Sarımsağı tez-tez salatlara əlavə edin. Həmçinin xüsusi sarımsaq suyu hazırlamaq olar. 5 baş sarımsağı blenderdən keçirin, üzərinə 1 stəkan isti (qaynar yox!) su tökün, su soyuyanda süzün, 1-2 xörək qaşığı bal əlavə edin. Dəmləməni gün ərzində hər dəfə 1-2 xörək qaşığı olmaqla için.

Zəncəfil

Zəncəfil ən güclü virus əleyhinə vasitələrdən biridir. Zəncəfilli-limonlu çay qrip və soyuqdəymənin simptomlarını yüngülləşdirir, öskürək və zökəm zamanı yardım edir, immuniteti gücləndirir, sağalmanı tezləşdirir. Çaya bal da əlavə edə bilərsiniz.

Sarıkök

Qrip və soyuqdəymənin ilk simptomlarında bal və sarıkök əlavə olunmuş süd içmək faydalıdır. Bu qarışıq güclü virus əleyhinə vasitədir. 1 stəkan çox da isti olmayan südə (təxminən 400C) 1 çay qaşığı sarıkök, 1 xörək qaşığı bal əlavə edəndən sonra qarışdırıb için.

**Sağlam yaşam**

## Oturaq həyat tərzi keçirənlər, həyatınızı qısaldırsınız



**İnsanların gün ərzində oturaq həyat tərzi keçirməsi vaxtından əvvəl ölüm riskini artırır. Bu risk gün ərzində 12,5 saatdan çox oturanlara şamil olunur.**

Oturaq həyat tərzi hətta həftədə 300 dəqiqə - tövsiyə edilən normadan 2 dəfə artıq idman edənlər üçün də ölüm təhlükəsi artır.

Amerikalı alimlər yaşı 45 və yuxarı olan 8000 könüllünün üzərində aparılan müşahidələrdən sonra bu nəticəyə gəliblər.

Oturaq həyat tərzinin zərərlərini minimuma endirmək üçün mütəxəssislər işə velosipedlə və piyada getməyi məsləhət görürlər. Ofisdə iş vaxtı fasilə vermək, qalxmaq və gəzmək də tövsiyə edilir. Nahar fasiləsi zamanı isə küçəyə çıxmaq, pilləkənlərlə enib-qalxmaq vacibdir. Bunlar az da olsa, fiziki aktivliyə səbəb olur.



**Tibbi yenilik**

## Xərçəng xəstəliyi ilə mübarizədə uğurlu üsul

**İsveçrənin Bazel Universitetində siçanlar üzərində aparılan tədqiqatlar nəticəsində alimlər xərçəng hüceyrələrinin piy hüceyrələrinə çevrilməsinə nail olublar. Bu üsul sayəsində şişlərin metastaz yaratmasının qarşısı alınıb.**

Tədqiqatçı qrupun rəhbəri Herhard Xristofori əldə olunan nəticələri izah edərkən bildirib ki, xərçəng hüceyrələrinin yüksək plastik təbiətə malik olması və öz bioloji xarakterini dəyişə bilməsi alimlər üçün mühüm faktor olub. Alim qeyd edib ki, qan dövranında hərəkət edən və dəyişkən xassəyə malik xərçəng hüceyrələri sürətlə yayıla bildiyi kimi, digər hüceyrələrə çevrilmə xassəsinə də malikdir. Məhz bu xassəni nəzərə alan alimlər bədxassəli xərçəng hüceyrələrini "yenidən proqramlaşdırmağa" və onların təhlükəsiz piy hüceyrələrinə çevrilməsinə nail olublar. Xərçəng hüceyrələri piy hüceyrələrinə çevrildikdən sonra yayılma dayanıb və hərəkətsiz hala gələn yeni hüceyrələr orqanizm üçün heç bir təhlükə yaratmayıb.

Rosiqlitazon və trametinib adlı iki maddənin kombinasiyasından ibarət yeni preparatın əsas üstünlüklərindən biri də xərçəng hüceyrələrinin inkişafını dayandırmaqla yanaşı, digər orqanlara mənfi təsir göstərməməsidir. Hazırda döş vəzi xərçənginə qarşı sınaqdan keçirilən yeni mübarizə üsulunun xərçəng xəstəliyinin digər formalarına qarşı da tətbiqi nəzərdə tutulur.

**Məlhəm**

## Ən faydalı süd

Arı südü dünyanın ən bahalı südü hesab edilir. Bir qramı 5 manata, litri təxminən 5 min manata satılan arı südünün istehsalı da olduqca azdır. Xərçəng və bu kimi bir sıra dəhşətli xəstəliklərin müalicəsi üçün arı südü tövsiyə edilir.

Arı südü ən güclü bioloji stimulyator sayılır - orqanizmi möhkəmləndirir, tonusunu artırır, xəstəliklərlə mübarizəyə yardım edir.

Bundan əlavə, ən güclü təbii antibiotiklərdən biri sayılır, vərəm çöpünə öldürücü təsir edir.



Ürək əzələsinə müsbət təsir edir, infarkt keçirmiş xəstələrin vəziyyətini yaxşılaşdırır.

Mütəxəssislər bildirirlər ki, arı südü həm də yuxu problemi və depressiyadan əziyyət çəkən şəxslər üçün faydalıdır.

Artıq çəkidən azad olmaq, dəri problemlərinin aradan qaldırılması və saç tökülməsinin qarşısının alınması üçün də arı südündən istifadə tövsiyə olunur.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanvarın 25-də Gəncə şəhərində Daşkəsən, Gədəbəy, Göygöl, Samux rayonlarının və Gəncə şəhərinin sakinlərinin, həmçinin həmin şəhər və rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.

Fövqəladə hallar naziri tərəfindən qəbul edilən 18 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib. Bundan başqa, kadr məsələləri ilə bağlı 156, digər məsələlərlə bağlı müraciət etmiş 32 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

***

Kənd təsərrüfatı naziri İnam Kərimov yanvarın 25-də Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında şimal bölgəsindən olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan sakinlərin müraciətlərinə baxılıb. Qəbula gələn vətəndaşların müraciətləri əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub.

Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

***

Yanvarın 25-də mədəniyyət naziri Əbülfəs Qarayev Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Qəbulda Sumqayıt, Abşeron, Xızı, Zəngilan, Qubadlı və Şuşadan olan sakinlər iştirak ediblər.

Sonra nazir Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

Sumqayıtdan qəbula gəlmiş sakinlər 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi ilə bağlı şəhərdə "Nəsimi poeziyası" respublika festivalının keçirilməsi, rəssamların və tətbiqi sənət ustalarının əl işlərinin xarici ölkələrdə sərgi və satışının təşkil olunması, 2016-cı ilin Aprel döyüşlərində şəhid olmuş Əbdülməcid Axundova həsr olunmuş "Mən səninləyəm, ana Vətən" sənədli-bədii filminin Bakıda təqdimatının keçirilməsi və digər məsələlərlə bağlı xahişlərini nazirə çatdırıblar.

Abşeron rayonundan qəbula yazılan vətəndaşlar uşaq musiqi və incəsənət məktəblərində axşam şöbələrinin yaradılmasını xahiş ediblər.

Xızı sakinləri rayondakı Cəfər Cabbarlı adına Mədəniyyət Mərkəzinin müasir tələblərə cavab verən yeni binaya köçürülməsi, C.Cabbarlı adına Mədəniyyət Mərkəzinə və ev-muzeyinə direktor vəzifəsinə təyinat, işlə təmin olunma barədə müraciət ünvanlayıblar.

Zəngilan rayonundan olan vətəndaşların müraciəti mədəniyyət müəssisələrində attestasiyanın keçirilməsi və müvəffəqiyyət əldə etmiş kadrların işinin qiymətləndirilməsi barədə olub.

Qubadlı rayonundan qəbula yazılmış vətəndaşlar məcburi köçkün ailələri üçün yeni tikilən yaşayış massivlərində musiqi məktəbləri, klublar və mədəniyyət evlərinin yerləşdirilməsi və digər məsələlərlə bağlı xahişlərini bildiriblər.

Niyazi adına Şuşa şəhər incəsənət məktəbinin "Təbəssüm" rəqs qrupunun xarici ölkələrdə keçirilən beynəlxalq festivallarda iştirakına köməklik göstərilməsi də xahiş edilib.

Bundan əlavə, qəbulda Cabir Novruz Mədəniyyət Fondu tərəfindən Cəfər Cabbarlının 120 illik yubileyinin keçirilməsi ilə bağlı layihə barədə də müraciət olunub.

Qəbulda müraciətlərin bir qismi yerindəcə həll olunub, digərləri araşdırılması məqsədilə nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

***

Yanvarın 25-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Biləsuvar şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Biləsuvar, Cəlilabad, Salyan və Neftçala rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul zamanı meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, geologiya, ətraf mühitin monitorinqi və s. məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

***

Baş prokuror Zakir Qaralov yanvarın 25-də Şamaxı Rayon Prokurorluğunun inzibati binasında Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Kürdəmir və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda baş prokuror Zakir Qaralov bölgədə yaşayan 28 vətəndaşın müraciətini dinləyib. Qaldırılan məsələlər üzrə müraciətlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

***

Yanvarın 25-də Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov Qobustan şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Qobustan rayonu ilə yanaşı, Şamaxı, Ağsu, Hacıqabul rayonlarından olan vətəndaşların müraciətlərinə baxılıb. ƏMDK-nın müvafiq qurumlarının rəhbərlərinin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri əsasən, daşınmaz əmlakların qeydiyyata alınması, torpaqların təyinatına və faktiki vəziyyətinə uyğun istifadəsi, dövlət əmlaklarının özəlləşdirilməsi ilə bağlı olub. O cümlədən hərraclarda iştirak, torpaqların elektron kadastr uçotu, dövlət əmlakının icarəyə götürülməsi ilə bağlı müraciətlər də səsləndirilib.

Vətəndaşların fərdi müraciətlərini diqqətlə dinləyən komitə sədri bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlarını verib. Bəzi müraciətlər dərhal həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində struktur bölmələrin rəhbərlərinə müvafiq göstərişlər verilib. Komitənin fəaliyyət istiqamətlərinə aid olmayan məsələlər isə aidiyyəti üzrə göndərilməsi üçün qeydiyyata alınıb.

*AZƏRTAC*

# Nəsimi dövrü tarixi səpkidə təhlil ediləcək

"Nəsimi ili" çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) institutlarında silsilə tədbirlər keçirilir. Bununla əlaqədar AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov AZƏRTAC-a açıqlama verib. O bildirib ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" sərəncamı Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunması, tədqiqi və təbliğinə çox böyük töhfədir. Bu sərəncam Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda böyük razılıqla qarşılanıb. 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verəcək. Nəsimi irsi, böyük mütəfəkkirin yaşadığı dövr və sosial ədalət uğrunda mübarizəsi daha dərindən araşdırılacaq.



Sərəncamda qeyd edildiyi kimi, "Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir". Həmin yubiley tədbirlərinin davamı olaraq 1979-cu ildə Bakının mərkəzində İmadəddin Nəsiminin heykəli ucaldılıb və şair haqqında məşhur bədii film çəkilib. Ulu öndər Heydər Əliyev kimi, İlham Əliyev də tariximizə sahib çıxan, onu dirçəldən, qoruyan və inkişaf etdirən ölkə rəhbəridir.

Ulu öndər Heydər Əliyevin 90 illiyinə həsr olunan və ssenari müəllifi olduğum "Dahi azərbaycanlı" filmində (2013) onun təşəbbüsü və tapşırığı ilə çəkilən "Nəsimi", "Babək", "Dədə Qorqud" və "Nizami" filmləri barədə məlumat verilib.

Nəsimi obrazını ədəbiyyatda, musiqidə, rəssamlıqda, heykəltəraşlıqda və kinoda təcəssüm etdirən dəyərli əsərlər yaranıb: yazıçı İsa Hüseynovun "Məhşər" romanı və onun ssenarisi əsasında rejissor Həsən Seyidbəylinin çəkdiyi "Nəsimi" filmi, görkəmli rəssam Mikayıl Abdullayevin "Nəsimi" portreti, şair Qabilin "Nəsimi" poeması, bəstəkarlardan Süleyman Ələsgərovun şairin qəzəllərinə bəstələdiyi romanslar, Cahangir Cahangirovun "Nəsimi" kantatası, Azər Rzayevin "Nəsimi" simfonik poeması, Fikrət Əmirovun "Nəsimi haqqında dastan" baleti və s. Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin "Nəsimi" passionu dahi şairimizin sönməz həyat eşqinin, haqq-ədalət uğrunda mübarizəsinin dünyaya tanıdılmasında mühüm rol oynadı.

Nəsimi dövrü və onun fəlsəfi görüşləri lazımınca araşdırılmayıb. Onun ustadı Fəzlullah Nəimi hürufilik elmi-fəlsəfi cərəyanının banisidir. Sovet dönəmində Nəsiminin guya İslam əleyhinə olduğu bildirilirdi. Əslində isə o, dini elmin, maarifin inkişafına yol açmağa çağırır, xurafata və cəhalətə qarşı çıxış edirdi. O, dində islahatlar tərəfdarı idi. Nəiminin və Nəsiminin dində islahatlar təşəbbüsü orta əsrlər Avropasındakı dini islahatlardan - Reformasiya hərəkatından daha öncə baş verib. Dində islahat əslində Şərqdən başlayıb. Sadəcə orta əsrlər Şərqində islahat ideyaları baş tutmadı. Avropada isə Lüterçilik, Münserçilik, Kalvinizm inkişafa geniş yol açdı. Bu baxımdan bəşəri dəyərlərə, insana sevgiyə və əmin-amanlığa çağırış Nəsimi yaradıcılığının əsas xəttidir. Onun yaradıcılığı sosial ədalətsizliyə və hər növ zülmə qarşı böyük etiraz idi. Nəimi və Nəsimi dünya tarixinin dahi maarifçiləri idilər.

Altmış milyonluq Azərbaycan xalqı dünyanın hər yerində tarix yaradıb. Dünya ölkələrində uyuyan dahilərimizin - Nəsirəddin Tusinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin və başqa mütəfəkkirlərimizin məzarları bizim müqəddəs ziyarətgahlarımızdır, onlara toxunmaq olmaz. Tarixi şəxsiyyətlərimiz harada yaşayıb-yaradıbsa, dəfn olunubsa, bizim orada tariximiz var. Nəsiminin məzarının Hələb şəhərində olması Azərbaycan xalqının o zaman Yaxın və Orta Şərqin çox geniş regionunda yayıldığını, bütün bu regionun təkcə hərbi-siyasi həyatında deyil, elmi-ədəbi həyatında da mühüm rol oynadığını göstərir. Fikrimcə, böyük Nəsiminin məzarı Azərbaycan tarixinin müqəddəs bir ziyarətgahı kimi Hələbdə qalmalıdır.

Məlumdur ki, Nəsiminin məzarının Hələbdə olduğunu böyük mütəfəkkirimiz Rəsul Rza aşkar edib. Mən o zaman bu məsələlərlə bağlı Rəsul Rza ilə olan çoxsaylı söhbətlərin şahidiyəm. O, Nəsiminin məzarının aşkar edilməsi və qorunub saxlanılmasında mühüm rol oynayıb.

Ümid edirik ki, dahi Nəsiminin Hələbdəki məqbərəsinin gələcəkdə bərpa olunması da dövlətimizin diqqət mərkəzindən kənarda qalmayacaq.

İctimaiyyətə bildirmək istəyirəm ki, AMEA-nın Tarix İnstitutu bu il Şamaxı şəhərində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirəcək. Tarixçilərimiz konfransda Nəsimi dövrünü tarixi səpkidə təhlil edəcəklər.


## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi tədbirlərin keçirilməsinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

LOT-1 - Valideyn himayəsindən məhrum olmuş uşaq evlərində və xüsusi uşaq bağçalarında Novruz bayramı tədbirinin keçirilməsi və uşaq bağçalarında Novruz bayramı ilə bağlı digər işlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Sona Vəlixanlı-1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu; tel: 492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 01 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 12 mart 2019-cu il saat 17:00-a qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç.-1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 13 mart 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***


# İtaliya-Azərbaycan Beynəlxalq Film Festivalında 15 film nümayiş olunacaq

Yanvarın 25-də Nizami Kino Mərkəzində İtaliya-Azərbaycan Beynəlxalq Film Festivalının açılışı münasibətilə mətbuat konfransı keçirilib.




AZƏRTAC xəbər verir ki, mətbuat konfransında festivalın sədri, italiyalı aktyor Remo Girone iki ölkə arasında mədəni əlaqələrdən danışaraq ilk dəfə keçiriləcək bu festivalın kinematoqrafiya sahəsində əlaqələrin inkişafına öz töhfəsini verəcəyini bildirib. O deyib: "Bir çox ölkələrdə - ABŞ, Fransa, Polşa, Almaniyada fəaliyyət göstərmişəm. Azərbaycanla əməkdaşlıq etmək mənim üçün çox maraqlı olardı. İnanıram ki, belə tədbirlər bizim birgə əməkdaşlığımızın inkişafına yeni təkan olacaq. İki ölkə arasında mədəniyyət sahəsində mövcud olan əlaqələr bundan sonra davam etdiriləcək".

Tədbirdə festivalın direktoru Claudio Rossi Massimi, jüri üzvü Fehruz Şəmiyev, Mədəniyyət Nazirliyinin əməkdaşı Almaz Sultanzadə, festivalın layihə meneceri Kənan Zülfüqarov və başqaları çıxış edərək festival barədə məlumat veriblər.

Bildirilib ki, Mədəniyyət Nazirliyi, film istehsalı şirkətləri olan "İmago Group", "United Cultures" və "Sandro Teti Editore"nin birgə dəstəyi ilə reallaşan festival İtaliya və Azərbaycan kino sənayesinin keçmişi, bu gününü və gələcəyini təbliğ etmək məqsədi daşıyır. Festival iki ölkənin film sənayesinin oxşar və fərqli cəhətlərini nümayiş etdirməklə beynəlxalq kino məkanının fəaliyyətini təşviq edəcək.

Qeyd edilib ki, İtaliyanın Azərbaycandakı səfirliyi, Nizami Kino Mərkəzi və "The Landmark" tərəfindən dəstəklənən festival hər iki ölkənin bir sıra elmi mərkəzləri ilə əməkdaşlıq çərçivəsində təşkil olunub. Yanvarın 30-dək davam edəcək festival çərçivəsində hər iki ölkənin mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən seçilmiş 15 müasir film bir neçə seans şəklində nümayiş olunacaq. Festivalda nəzərdə tutulmuş mükafatların sayı 10-dur. Filmlər "Ən yaxşı Azərbaycan filmi", "Ən yaxşı İtalyan filmi", "Ən yaxşı beynəlxalq film", "Ən yaxşı Azərbaycan sənədli filmi", "Ən yaxşı İtaliya sənədli filmi", "Ən yaxşı beynəlxalq sənədli film", "Ən yaxşı aktyor", "Ən yaxşı ssenari", "Ən yaxşı foto" və "Ən yaxşı musiqi" nominasiyalar üzrə mükafatlandırılacaq.

Təqdim olunan nominasiyaların qaliblərinə xüsusi hazırlanmış "Zoroaster award" mükafatı veriləcək.

"La Piovra" serialında canlandırdığı Tano Cariddi obrazı ilə keçmiş sovet regionunda məşhur olan aktyor və rejissor Remo Girone mükafatlandırma mərasiminə rəhbərlik edəcək, italyan ssenari müəllifi və rejissoru Claudio Rossi Massimi isə festivalın bədii rəhbəri kimi çıxış edir.

# "ASAN xidmət"də "Azərişıq" ASC-nin daha 2 yeni xidməti yaradıldı

## "Çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyata alınması" və "Elektrik təchizatının layihələndirilməsi" xidmətləri fəaliyyətə başlayıb

"Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN kommunal" vasitəsilə abonentlərə göstərdiyi xidmətlərin sayı 15-ə çatdırılıb. Belə ki, xidmətlər sırasına daha 2 yeni xidmət əlavə olunub. Bu gündən etibarən ölkədəki bütün "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində "Çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyata alınması" və "Elektrik təchizatının layihələndirilməsi və qurlaşdırılması" xidmətləri fəaliyyətə başlayıb.

İndiyə qədər bir sıra mənzil tikinti kooperativləri (MTK) çoxmənzilli binalara ümumi texniki şərt əldə edir, bəzi hallarda əhali abonentlərdən enerji haqqının ödənişi, qeyri əhalinin ödənişi kimi qeydə alınır, sayğacla təmin edilmə prosesində vətəndaşlardan "Azərişıq" ASC-yə adiyyəti olmayan əlavə vəsait tələb edilir, bu isə vətəndaşların narazılığına səbəb olurdu.

Şəffaflıq və operativliyin təmin edilməsi, işin asanlaşdırılması məqsədilə "ASAN xidmət" mərkəzlərində yaradılan "Çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyata alınması" xidməti "Azərişıq" ASC ilə MTK, MMC və digər müəssisələrlə münasibətləri tənzimləyəcək. Bununla da çoxmənzilli yaşayış binalarında mənzil sahiblərinin elektrik şəbəkəsinə qoşulması üçün fərdi qaydada müraciət etmələrinə ehtiyac qalmayacaq, eyni zamanda mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq onlardan qoşulma haqqı tələb olunmayacaq. Həmçinin MTK sahibləri də sənədləşmə işini yerində həll edə biləcəklər.

"ASAN xidmət" vasitəsilə yeni yaradılan "Elektrik təchizatının layihələndirilməsi və quraşdırılması" xidmətinə gəldikdə isə, burada da sahibkarların tikəcəyi və ya quraşdıracağı yarımstansiyalar, transformatorlar, elektrik xətləri, obyektlərin daxili və xarici elektrik təchizatı layihələndiriləcək və onun əsasında tikinti-quraşdırma işlərinin həyata keçirilməsi təklif olunacaq.

*"Azərbaycan"*


## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi uşaq bağçaları və uşaq evləri üçün ümumi maddələr üzrə malların satın alınması məqsədilə

### *açıq tender elan edir*

LOT-1 - Dəftərxana ləvazimatı və təsərrüfat malları
LOT-2 - İdarənin digər xərcləri
LOT-3 - Cari təmir
LOT-4 - Kommunal və kommunikasiya xərcləri
LOT-5 - Yumşaq inventar
LOT-6 - Bərk inventar
LOT-7 - Avadanlıqların alınması
LOT-8 - Digər alış və xidmətlər
LOT-9 - Abadlaşdırma xidməti
LOT-10 - Digər maşın və avadanlıqlar
LOT-11 - Sair xərclər
LOT-12 - Uşaq bağçaları, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri üçün müxtəlif növ idman ləvazimatlarının və müxtəlif növ oyuncaqların satın alınması
LOT-13 - elektrotexniki avadanlıqlara texniki xidmət göstərilməsi, ehtiyat hissələrinin dəyişdirilməsi, yenisi ilə əvəz olunması və kartriclərin dolumu
LOT-14 - Ayağa geyilən gigiyenik salafan (baxıl)
LOT-15 - Uşaq bağçaları və uşaq evləri üçün elektrik avadanlıqlarının təmiri
LOT-16 - Mətbəə xərcləri üzrə malların satın alınması
LOT-17 - Uşaq bağçalarında və uşaq evlərində dezinfeksiya işlərinin yerinə yetirilməsinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 1-12-ci LOT-lar üzrə 250 manat, 13-cü LOT üzrə 100 manat, 14-17-ci LOT-lar üzrə 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri İstiqlaliyyət küçəsi-18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Məmmədova Raya Yusif qızı; tel:492-53-06.

Dövlət Xəzinədarlıq Agentliyi
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H: AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu: Fond 7Y**
**Büdcə Təsnifatının kodu: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 01 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 12 mart 2019-cu il saat 17:00-a qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (ünvan: İstiqlaliyyət küç.-18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 13 mart 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

# Yeni təşəbbüs, real nəticə, uğurlu gələcək

## Kənd şagirdlərinin əzmkarlığı sübut edir ki, uzaq məsafələr, yaşanan çətinliklər təhsilin qarşısında sədd ola bilməz





*Əvvəli 1-ci səh.*

Müəllimin sözlərinə görə, şagirdlərin dərsi mənimsəmələri də normaldır: "Kənd yeri olduğundan bəzi uşaqlar valideynləri ilə təsərrüfat işləri görməyə yönləndirilir, amma çalışırıq ki, onlarda da dərsə maraq yaradaq və yaxşı oxumalarına nail olaq".

Diqqətimizi çəkən maraqlı məqamlardan biri də məktəbdə cəmi bir ibtidai sinfin olması idi. Şagirdlərin sayı az olduğundan ibtidai siniflər komplektləşdirilir. Belə ki, I və III sinfilərdə 3 nəfər, II və IV siniflərdə isə 6 nəfər şagird təhsil alır. Uşaq sayının məhdud olması isə kənddə gənc ailələrin sayının az olması ilə bağlıdır.

"Böyüyəndə polis olacam və yaxşı olmayan adamları tutacam". Bu isə birinci sinfin tək şagirdi Mirzənin arzusudur.



Birinci sinfin tək şagirdi Mirzə



At belində məktəbə gələn Familə





### At belində dərsə gələn qız

Yuxarıda da qeyd etdiyimiz kimi, Gəndov kənd məktəbində digər kəndlərdən də təhsil almaq üçün gələn şagirdlər var. Elə valideynlər də var ki, övladlarını məktəbə at belində gətirir. Məsələn, modul tipli məktəbdə təhsil alan 5-ci sinif şagirdi Famlə Bağırova bildirdi ki, atası hər gün onu dərsə at belində gətirir: "Kəndimiz məktəbdən 4 kilometr aralıdadır. Qaldığımız kənddə 9 ev var. Yolumuz dağlıq olduğu üçün atam hər səhər məni məktəbə at belində gətirir. Qayıdanda isə özüm atla gedirəm".

Famlə deyir ki, bütün bu çətinliklərə baxmayaraq, oxumağı çox sevir. Böyüyəndə isə həkim olmaq istəyir və elə buna görə də qar-çovğun, yağış-günəş demədən hər gün həvəslə məktəbə gəlir...

9-cu sinif şagirdlərinin dərs aldığı otağa daxil oluruq. Rus dili dərsidir. Öyrəndik ki, bu il buraxılış sinfində olan bu uşaqlardan cəmi üç nəfər ali təhsil almaq niyyətindədir. Digərləri isə bu il məktəbi bitirib peşə təhsilinə yönələcəklər.

Məlumat verək ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq ucqar kəndlərdə az şagird kontingentli qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsi tətbiq edilib. 2017-ci ildə 40 rayonda 6 min şagird yerlik 106, 2018-ci ildə isə 43 regionda 8120 şagird yerlik 137 modul tipli məktəb quraşdırılıb. Bu tip məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır.



### Lahıclıların arzusunda olduqları yeni məktəb

Daha sonra Lahıc qəsəbə tam orta məktəblə tanış olmaq üçün ora yollandıq. Qarşılaşdığımız yeni məktəb binası hər birimizi yaxşı mənada heyrətləndirdi. Sözün düzü, ucqar bir yerdə bu cür möhtəşəm məktəblə qarşılaşacağımızı gözləmirdik.

Direktor Hikmət Haqverdili məlumat verdi ki, məktəbin inşasına 2017-ci ilin dekabr ayında başlanılıb, 2018-ci ilin avqust ayında tikinti-quraşdırma işləri başa çatdırılıb. 400 yerlik məktəb 3 mərtəbədən ibarətdir. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, ərazisində qazanxana, nasosxana, transformator yarımstansiyası, yeraltı içməli su anbarı və çirkab su anbarı mövcuddur. Otaqlar mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunub. Binanın daxilində idman zalı, hər mərtəbədə şagird və müəllimlər üçün ayrı-ayrılıqda sanitar qovşaqları var. Məktəbdə 220 şagird təhsil alır.

### Dərslər elektron lövhə ilə keçilir

Direktor onu da diqqətə çatdırdı ki, hazırda məktəbdə 30 müəllim çalışır: "Müəllimlərin əksəriyyəti müəllimliyə işə qəbul müsabiqəsində 50-dən yuxarı bal toplayıb. Amma bizim musiqi, rəsm, ingilis dili, coğrafiya və ibtidai sinif müəlliminə ehtiyacımız var. Gələn müəllimlər də müqavilə ilə işləyir və bir il sonra gedir. Hər il eyni proses yaşanır. Daimi müəllim olsa, bizim işimiz də rahat olar".

Daha sonra biologiya müəllimi Cəmilə Kamilovanın, fizika müəllimi Rövşən Əliyevin, ibtidai sinif müəllimi Günay Cəbrayılovanın dərslərini izlədik. Şagirdlərə dərsi elektron lövhə ilə keçən Günay müəllimin dərs prosesi ekspertlər tərəfindən müsbət qiymətləndirildi. Günay Cəbrayılova deyir ki, uşaqların təhsilə marağı yaxşıdır, ancaq kənddə işləmək çox çətindir.

Daha sonra isə məktəbin tarix-diyarşünaslıq muzeyində 9-cu sinif şagirdlərinin tarix dərsinin gedişi ilə tanış olduq.

Təhsil ocağında həm də məktəbəhazırlıq məşğələləri təşkil olunur.

Görünən odur ki, Azərbaycanda təhsilin müasir standartlar səviyyəsində təşkili üçün regionlarımızda hər cür şəraiti olan məktəb binalarının inşası, modul tipli məktəblərin quraşdırılıb istifadəyə verilməsi daim gündəmdədir. Bütün bu həyata keçirilən işlər təhsilimizə, gələcəyimizə göstərilən yüksək qayğının nəticəsidir.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

## 2019/2020-ci tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə *kursant qəbulu elan edir*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında əyani təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu il avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il fevral ayının 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*
- *təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*
- *yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*
- *ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*
- *oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*
- *9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78; (012) 590-97-76.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər **oğlanlar** üçün: turnikdə dartınma - 6 dəfə; qaçış 100 metr məsafəyə - 15 saniyə və 1000 metr məsafəyə - 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması - 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə; **qızlar** üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə; qaçış 100 metr məsafəyə - 19 saniyə və 1000 metr məsafəyə - 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 12 avqust-14 sentyabr 2019-cu il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Ətraflı məlumatlar akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.**

## B İ L D İ R İ Ş

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti tərəfdən 25 dekabr 2018-ci il tarixdə lotereya biletlərinin satışının təşkili xidmətinin satın alınması (LOT-1) üzrə keçirilmiş müsabiqədə təqdim olunmuş tender təklifləri əsasında 4 (dörd) şirkət - "Lotto Yayım" MMC, "Azərinteltek" QSC, "Azərpoçt" MMC və "Mobil loto" MMC qalib müəyyən olunmuşdur.

***Tender komissiyası***

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Sarıcalı, Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin komissiya sədri, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsindən Valeh Ələsgərov, Kamran Nəbizadə, Mirkazım Kazımov, Rövnəq Abdullayev, Mirzəcan Xəlilov, Mixail Zabelin, əməkdaşlar Şamil Hüseynov və Sürəyya Abdullayeva Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi DQİDK-nın əməkdaşı Anar Əliyevə atası

**QURBAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları, tarix üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı

**TAMİLLA HƏŞİM QIZI MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov və institutun kollektivi Şəki Folklor və arxeoloji ekspedisiyanın rəisi

**NƏSİB MUXTAROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova və konfederasiyanın Rəyasət Heyətinin üzvü Taleh Qasımova əzizləri

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağayev Orxan Samir Heydərova qardaşı

**ELXAN HEYDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağsudan Ənvər Seyidəliyev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8280
Sifariş 206
Qiyməti 40 qəpik